# YENİ AZƏRBAYCAN

28 avqust 2026-cı il, cümə
№ 154 (7221)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.




Milli azadlıqdan şirin nemət yoxdur!

# Türk dünyasında yeni güc konfiqurasiyası: Nümunəvi qardaşlıq, müttəfiqlik və tərəfdaşlıq...



Bax səh. 2

# Azərbaycan XİN-dən Rusiyaya çağırış...

## Səfirlik qarşısındakı təxribat hərtərəfli araşdırılmalıdır

Avqustun 27-də günorta radələrində Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Səfirliyinin qonaq evi qarşısında naməlum şəxslər tərəfindən ölkəmiz əleyhinə təxribat xarakterli şəkillərin yerləşdirilməsini qətiyyətlə pisləyirik.

Bu sözlər Azərbaycanın Xarici İşlər Nazirliyinin bəyanatında yer alıb.

Bəyanatda deyilir: "Bu qəbuledilməz təxribatın Azərbaycan-Rusiya münasibətlərinin süni şəkildə gərginləşdirilməsinə xidmət etməklə yanaşı, son dövrlərdə Rusiyanın bir sıra media resurslarında Azərbaycana qarşı aparılan çirkin və qərəzli kampaniyanın tərkib hissəsi olduğu istisna edilmir.

Azərbaycan tərəfi Rusiya Federasiyasının aidiyyəti qurumlarını bu kimi təxribatçı əməllərə lazımi hüquqi qiymət verməyə, insidentin hərtərəfli araşdırılmasını təmin etməyə və bu cür halların təkrarlanmasının qarşısını almaq üçün zəruri tədbirlər görməyə çağırır.

Rusiya tərəfinin 1961-ci il Diplomatik Münasibətlər haqqında Vyana Konvensiyasına uyğun olaraq Azərbaycan Respublikasının Səfirliyinin və onun əməkdaşlarının təhlükəsizliyinin lazımi səviyyədə təmin edilməsinə, habelə diplomatik nümayəndəliyin normal fəaliyyətinə mane ola biləcək hər hansı təxribatçı hərəkətlərin qarşısının alınmasına dair öhdəliklərini tam şəkildə yerinə yetirməsini gözləyirik".

# Qarabağın bərpasına dost dəstəyi

Bax səh. 3

## Orta Dəhlizin daşınma gücü artırılır



Bax səh. 4

## Zelenski Azərbaycana təşəkkür edib

Bax səh. 4

## 24 ad, 24 yarımçıq həyat



Bax səh. 5

## Bank sektoru üçün həyəcan siqnalı...

Bax səh. 4

## Orta ixtisas təhsili "ehtiyat variant" deyil

Bax səh. 5

## Ukrayna ilə Rusiya arasında yeni görüş keçiriləcək?

Bax səh. 6

## Qara fələyin ağ maskası

Bax səh. 7

## Avropa İttifaqının yeni miqrasiya qaydaları sınaq qarşısında



Bax səh. 6



# Türk dünyasında yeni güc konfiqurasiyası: Nümunəvi qardaşlıq, müttəfiqlik və tərəfdaşlıq...

## Azərbaycan - Özbəkistan birliyi TDT-nin qlobal rolunu gücləndirir

Son illərdə Azərbaycanın həyata keçirdiyi ardıcıl və çoxşaxəli xarici siyasət kursu, eləcə də müvafiq coğrafiyada yaratdığı yeni reallıqlar Türk Dövlətləri Təşkilatını (TDT) regional əməkdaşlıq platformasından qlobal geosiyasi proseslərdə çəkisi artan mühüm aktora inteqrasiyasını sürətləndirib. Bakı yalnız ikitərəfli münasibətlərini yeni strateji məzmunla zənginləşdirmir, eyni zamanda Türk dövlətləri arasında siyasi, iqtisadi, təhlükəsizlik və nəqliyyat əlaqələrinin vahid sistem daxilində inkişafına ciddi töhfə verir. Azərbaycanın yerləşdiyi geostrateji mövqe - Avropa ilə Asiyanı, Şimal ilə Cənubu birləşdirən mühüm kommunikasiya qovşağı olması bu prosesdə Bakıya xüsusi imkanlar yaradır.

Bu baxımdan TDT artıq yalnız ortaq dil, tarix və mədəniyyət üzərində qurulan əməkdaşlıq formatı deyil. Təşkilat iqtisadiyyat, enerji, nəqliyyat, rəqəmsal transformasiya, müdafiə və təhlükəsizlik kimi strateji istiqamətlərdə funksional mexanizmlər formalaşdıraraq daha institusional xarakter qazanır. Orta Dəhlizin inkişafı, Xəzər üzərindən yeni nəqliyyat bağlantılarının genişləndirilməsi və türk dövlətləri arasında ticarət dövriyyəsinin artırılması TDT məkanının Avrasiyanın iqtisadi xəritəsində əhəmiyyətini yüksəldir. Bu prosesdə Azərbaycanın təşəbbüsləri təşkilatın praktiki imkanlarının genişlənməsinə xüsusi impuls verir.

Ən mühüm məqamlardan biri isə Azərbaycanın ikitərəfli müttəfiqlik və strateji tərəfdaşlıq münasibətlərini TDT daxilində çoxtərəfli əməkdaşlığın inkişafına transformasiya edə bilməsidir. Məsələn, Türkiyə - Azərbaycan müttəfiqliyi bunun ən bariz nümunəsidir - iki ölkə arasında siyasi, hərbi, enerji və nəqliyyat sahələrində formalaşan yüksək səviyyəli əməkdaşlıq yalnız Bakı və Ankaranın münasibətlərini deyil, bütövlükdə Türk dünyasının strateji potensialını gücləndirir. Eyni tendensiya Azərbaycan-Özbəkistan münasibətlərində də müşahidə olunur. Son illərdə siyasi dialoqun intensivləşməsi, qarşılıqlı səfərlərin artması, iqtisadi əlaqələrin genişlənməsi və müdafiə sahəsində əməkdaşlığın dərinləşməsi iki ölkə arasında yeni strateji mərhələ yaradıb. Azərbaycan-Özbəkistan münasibətlərində formalaşan model isə yenri dövrdə TDT çərçivəsində əməkdaşlığın daha yüksək səviyyəyə qaldırılması üçün mühüm nümunə rolunu oynayır. Bakı ikitərəfli tərəfdaşlıqları türk dövlətləri arasında daha geniş inteqrasiya prosesinin dayaqlarına çevirərək TDT-nin siyasi çəkisinin, iqtisadi potensialının və beynəlxalq təsir imkanlarının artmasına şərait yaradır. Bu isə Türk dünyasının qlobal sistemdə daha koordinasiyalı, daha çevik və daha təsirli aktor kimi mövqelənməsi üçün yeni imkanlar açır.



### Bütün məsələlərdə qarşılıqlı dəstək nümayişi

Qeyd olunduğu kimi, Azərbaycanla Özbəkistan arasında çoxvektorlu əlaqələr mövcuddur - bu isə paralel olaraq siyasi dialoqun da yüksək dinamikasını özündə əks etdirir. Burada, heç şübhəsiz ki, liderlərin şəxsi nümunələrini, onların dostluq münasibətlərinin, müxtəlif səviyyələrdə təmasların artmasının rolunu xüsusi qeyd etmək lazımdır. Dövlət başçıları tez-tez qarşılıqlı səfərlər edirlər. Bir qayda olaraq İlham Əliyev Özbəkistanda, Şavkat Mirziyoyev isə Azərbaycanda əziz qonaq kimi qarşılanırlar və onlar məmnuniyyətlə bildirirlər ki, bu səfərlər zamanı özlərini evlərindəki kimi hiss edirlər. Liderlər arasında belə intensiv təmaslar son nəticədə dövlətlərarası münasibətlərin dinamikasına güclü təkan verir, qarşılıqlı inamı daha da artırır. Yaranan müttəfiqliklər, möhkəmlənən dostluqlar isə Türk ailəsinin də gələcəyi üçün əhəmiyyətli təməl yaradır. Prezident İlham Əliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə müsahibəsində bildirib ki, ölkələrimizin həm ikitərəfli, həm də çoxtərəfli formatlarda mühüm məsələlərin həlli üzrə birgə səyləri yüksək qiymətə layiqdir. İki qardaş ölkənin - Azərbaycanın və Özbəkistanın bütün məsələlərdə bir-birini daim dəstəkləməsi faktı qürur hissi doğurur: "Azərbaycan ilə Özbəkistan arasında Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq xüsusi əhəmiyyətə malikdir. Ötən il Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirildi. Təşkilat çərçivəsində əməkdaşlığa dair əsas məsələlər müzakirə edildi və TDT-nin möhkəmləndirilməsi, Türk dünyasında daha sıx birliyin təmin edilməsi, onun siyasi, iqtisadi və hərbi gücünün artırılması, həmçinin qlobal arenada təsir və güc mərkəzinə çevrilməsi məqsədilə bəyannamələr imzalandı".

Bəli, faktiki olaraq Azərbaycanın Türkdilli dövlətlərlə ikitərəfli münasibətləri inkişaf etdirmək strateji xətti bütövlükdə region üçün yeni bir mərhələ yaradır. Ölkəmizin həyata keçirdiyi müstəqil və praqmatik xarici siyasət Türk dövlətləri arasında qarşılıqlı etimadın möhkəmlənməsinə, strateji tərəfdaşlığın dərinləşməsinə və ortaq maraqların beynəlxalq platformalarda daha effektiv müdafiəsinə xidmət göstərir. Xəzərdən Aralıq dənizinə, Mərkəzi Asiyadan Avropaya qədər uzanan nəqliyyat və enerji dəhlizlərinin formalaşmasında Azərbaycanın oynadığı rol ölkəmizi Türk dünyasının əsas geostrateji körpülərindən birinə çevirib. Bu baxımdan Bakı yalnız coğrafi baxımdan deyil, həm də siyasi və iqtisadi baxımdan Türk dövlətlərini birləşdirən mühüm mərkəz funksiyasını yerinə yetirir. Bakı təşkilatın funksionallığını artırmaq üzərində real iş aparır. Vurğulandığı kimi, Özbəkistanla yaranan yüksək ikitərəfli münasibətlər də bunun bariz sübutudur.

### TDT-nin inkişafına verilən töhfə...

Nəticə ortadadır - Türk dünyasının inteqrasiyası son illərdə beynəlxalq münasibətlər sistemində mühüm geosiyasi və geoiqtisadi amillərdən birinə çevrilib. Ortaq tarix, dil, mədəniyyət və mənəvi dəyərlər üzərində formalaşan bu əməkdaşlıq modeli artıq təkcə mədəni-humanitar sahə ilə məhdudlaşmır, siyasi dialoq, iqtisadi inteqrasiya, nəqliyyat-kommunikasiya layihələri, enerji təhlükəsizliyi və regional sabitliyin təmin olunması istiqamətlərində də yeni məzmun qazanır. Bu prosesdə Azərbaycan və Özbəkistan həm təşəbbüsləri, həm də praktik fəaliyyətləri ilə Türk dünyasının inkişafına mühüm töhfələr verən aparıcı dövlətlər kimi çıxış edirlər. Yeni dövrdə Azərbaycan - Özbəkistan müttəfiqliyi Türk dünyası ailəsi üçün yeni qardaşlıq modeli yaradır. Əslində, bu Azərbaycanın uğurlu xarici siyasət kursunun real nəticəsidir - hələ 2024-cü ilin fevralında Prezident İlham Əliyev andiçmə mərasimindəki çıxışında bildirmişdi ki, "Bizim ailəmiz Türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir".

Bu gücü yaradan amillər isə birlik, müttəfiqlik, strateji əlaqələrin möhkəmlənməsidir. Prezident İlham Əliyev müsahibəsində bildirib ki, Azərbaycan və Özbəkistan TDT-ni təkcə dövlətlərarası əməkdaşlıq platforması kimi deyil, həm də ortaq tariximizi, mədəniyyətimizi və mənəvi dəyərlərimizi gələcəyə daşıyan mühüm birlik kimi dəyərləndirir: "Azərbaycanın və Özbəkistanın TDT daxilində siyasi dialoqun, iqtisadi əlaqələrin, nəqliyyat və logistika imkanlarının, təhsil, elm və mədəni-humanitar sahələrdə əməkdaşlığın inkişafına verdikləri töhfə türk dövlətləri arasında inteqrasiyanın daha da dərinləşməsinə xidmət edir".

### Coğrafi şərait belə iki qardaş dövləti təbii tərəfdaşlara çevirir

Prezident müsahibəsində onu da vurğulayıb ki, "əməkdaşlığımız, xüsusən də nəqliyyat və logistika sahəsində qarşılıqlı fəaliyyətimiz böyük perspektivlər vəd edir. Azərbaycanın Cənubi Qafqazda, Özbəkistanın isə Mərkəzi Asiyada mövqeyi ölkələrimizi Şərqlə Qərbi birləşdirən mühüm strateji marşrutlarda təbii tərəfdaşlara çevirir. Bu baxımdan Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsinin Orta Dəhliz və TRIPP ilə inteqrasiyası bütün region üçün yeni iqtisadi və tranzit imkanları yaradacaq".

Vurğulandığı kimi, nəqliyyat-logistika istiqaməti TDT-nin qlobal təsir sisteminin ən strateji dayaqlarından biridir. Orta Dəhliz artıq Avrasiyanın ən dinamik ticarət arteriyasına çevrilib. Çin-Avropa yükdaşımalarının böyük hissəsi bu marşrut üzərindən həyata keçirilir. Azərbaycanın təşəbbüsü ilə bu dəhlizin infrastruktur əsasları formalaşdırılıb: Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Limanı, Ələt azad iqtisadi zonası, Zəngəzur dəhlizi (TRIPP) və yeni əməkdaşlıq perspektivləri TDT-nin iqtisadi xəritəsini tamamilə dəyişib. Zəngəzur dəhlizinin (TRIPP) açılması yalnız Azərbaycan və Türkiyə üçün deyil, bütün Türk dünyası üçün tarixi geoiqtisadi hadisə olacaq. Bu, həm Asiya ilə Avropa arasında fasiləsiz quru əlaqəsini təmin edir, həm də TDT-ni bütün Avrasiyanın logistika mərkəzinə çevirir. TDT dövlətləri bu dəhlizlər vasitəsilə həm enerji, həm ticarət, həm də təhlükəsizlik baxımından bir-birinə sıx inteqrasiya olunmuş sistem formalaşdırır.

Paralel olaraq iqtisadi əməkdaşlıq siyasi münasibətlərin sabitləşməsi üçün də ən güclü mexanizmlərdəndir Zəngəzur dəhlizi (TRIPP) məhz bu baxımdan da böyük önəm daşıyır. Bu layihə qütblərarası siyasi dialoqun intensivləşməsi, qarşılıqlı etimadın artması və münaqişə risklərinin azalması üçün vacibdir. Bu baxımdan Zəngəzur dəhlizi (TRIPP) həm Qafqazda və Mərkəzi Asiyada geosiyasi balansın yenilənməsi, həm illərdir ki, rəqabətə çevrilmiş qitələrarası münasibətlərin işgüzar modelinin formalaşdırılması, həm də yeni əməkdaşlıq mühitinin yaradılması üçün mühüm alət sayılır.

### Milli irsin keşiyində...

Eyni soy - kökə malik iki qardaş ölkə həm də milli irsin qorunması, tariximizin yaşadılması istiqamətində formalaşdırdıqları yüksəksəviyyəli əlaqələrlə nümunəyə çevriliblər. Prezident İlham Əliyev müsahibəsində qeyd edib ki, ölkələrimiz digər türk təşkilatları çərçivəsində əməkdaşlığa da böyük əhəmiyyət verir: "Özbəkistanın 2025-ci ilin may ayında Türk Mədəniyyəti və İrsi Fondunun tamhüquqlu üzvü qəbul edilməsi əhəmiyyətli və dərin məmnunluq doğuran hadisə oldu. Zəngin tarixi irsə, qədim dövlətçilik ənənələrinə və özünəməxsus mədəni dəyərlərə malik Özbəkistanın bu Fonda qoşulması Türk dünyasının ortaq irsinin qorunması və təşviqi sahəsində əməkdaşlıq imkanlarını əhəmiyyətli dərəcədə genişləndirəcək".

Qeyd edək ki, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Türkdilli xalqların maddi-mənəvi irsin qorunması, tədqiqi və təbliği işini həyata keçirən beynəlxalq təşkilatdır. 2009-cu il oktyabrın 3-də Naxçıvan şəhərində keçirilmiş Türkdilli Ölkələrin Dövlət Başçılarının Zirvə Toplantısında fondun yaradılması təşəbbüsü ilə bağlı qərar qəbul edilib və həmin qərar 2010-cu il sentyabrın 16-da İstanbulda baş tutan növbəti Zirvə Toplantısında dəstəklənib. Fondun Nizamnaməsi 2012-ci il avqustun 23-də Bişkekdə keçirilən Zirvə Görüşündə Azərbaycan, Qazaxıstan, Qırğız və Türkiyə respublikalarının hökumət başçıları tərəfindən qəbul edilib. 2025-ci ildə Özbəkistanın quruma tamhüquqlu üzv qəbul olunması isə Türk dünyasının milli irsin qorunması prosesində gücünə güc qatıb...

***P.İSMAYILOV***

# Qarabağın bərpasına dost dəstəyi

## Özbəkistan köməyə gələn ilk ölkələrdən biridir

Qalib Azərbaycan Vətən müharibəsində işğaldan azad olunmuş ərazilərinin bərpasını, ora Böyük Qayıdışı qısa müddətdə və layiqli şəkildə təmin etməyi ölkəmizin daxil olduğu yeni strateji mərhələnin əsas prioritetlərindən biri kimi müəyyənləşdirib. Bu, əhatə dairəsi kifayət qədər geniş olan məsuliyyətli bir hədəfdir. Söhbət erməni vandalları tərəfindən tamamilə dağıdılmış və talan olunmuş 11 min kvadratkilometr ərazinin dirçəldilməsindən və məskunlaşdırılmasından gedir.

Buna görə də güclü və məsuliyyətli dövlət olan Azərbaycan bəhs olunan ərazilərin bərpasına və yenidən qurulmasına İkinci Qarabağ müharibəsi başa çatdıqdan dərhal sonra başladı. Arxada qalan altı ilin təcrübəsi və əldə olunan uğurlar onu deməyə əsas verir ki, Azərbaycan erməni lobbisinə bağlı olan müəyyən dairələrin işğaldan azad olunmuş ərazilərin bərpası ilə bağlı bütün skeptik yanaşmalarını tamamilə alt-üst etməyi bacarıb. Göz önündə yeni, daha gözəl, yaşamaq və çalışmaq üçün daha rahat bir Qarabağ formalaşır. Uzun illər ərzində işğal altında qalan, qəribsiyən Şuşa, Kəlbəcər, Xankəndi, Xocalı, Laçın, Ağdam və digər yurd yerlərimiz geri dönən doğma insanların isti nəfəsi ilə isinir, bu yerlərdə həyat qaynamağa başlayır.

### Daim Azərbaycanın yanında olan qardaş ölkə

Özünün ardıcıl siyasətində ədalət və beynəlxalq hüquq mövqeyindən çıxış edən Azərbaycan regional və qlobal miqyasda çoxlu dostlar qazanıb. Ölkəmiz hər zaman dost dövlətlərin sevincini bölüşdüyü kimi, onların kədərinə də şərik çıxır, çətinliklər yarananda köməyə tələsir və ehtiyac duyulan dəstəyi göstərir. Eyni zamanda, dost dövlətlər də daim ölkəmizlə, xalqımızla həmrəylik nümayiş etdirməyi özlərinə borc bilirlər. O cümlədən işğaldan azad olunmuş ərazilərin bərpasında da biz dost dövlətlərin xoş niyyətini və dəstəyini hər addımda hiss edirik.

Bu sırada, əlbəttə ki, qardaş Türkiyə ilə bərabər, Özbəkistanın da adı ön sırada dayanır. Azərbaycanla Özbəkistanın dostluğu tarixə söykənir. Xalqlarımızı oxşar ənənələr, zəngin milli-mənəvi dəyərlər, etiqad eyniliyi, dil, mədəniyyət oxşarlığı və digər belə fundamental amillər birləşdirir. İki qardaş dövlətin siyasi rəhbərliyi də cəmiyyətlərimizin hər cəhətdən yaxınlığını və istəyini nəzərə almaqla ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə güclü qətiyyət nümayiş etdirirlər. Sevindirici haldır ki, Azərbaycanla Özbəkistanın münasibətləri strateji tərəfdaşlıqdan strateji müttəfiqliyə yüksəlib və bu günlərdə Prezident İlham Əliyevin qardaş ölkəyə uğurla baş tutan növbəti dövlət səfəri çərçivəsində imzalanan müvafiq sənəd iki ölkə arasında əbədi dostluğun möhkəm hüquqi-siyasi əsaslarını müəyyənləşdirir.









Özbəkistanın Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpasına öz dəstəyini göstərməsi də bu ölkənin cəmiyyətinin və siyasi rəhbərliyinin respublikamıza, Azərbaycan xalqına qardaşlıq münasibətinin növbəti təzahürüdür. Prezident İlham Əliyev dövlət səfəri çərçivəsində Daşkənddə mətbuata bəyanatında Qarabağa investisiyaların cəlb olunmasında Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin xüsusi rolunu qeyd edib. "Əlbəttə, Prezident Şavkat Miromonoviç Mirziyoyevin Qarabağa investisiya cəlb edilməsində müstəsna rolunu bir daha qeyd etmək istərdim. İlk yardım - Füzulidə Mirzə Uluqbəy adına 960 şagird yerlik məktəbin tikintisi və Xankəndidə tikiş fabrikinə investisiyalar Özbəkistandan gəldi. İlk böyük sənaye müəssisəsi də Özbəkistanla bağlıdır. Həm Qarabağ bölgəsində, həm də bir çox digər bölgələrdə əlavə qarşılıqlı fəaliyyət planları mövcuddur", - deyə dövlətimizin başçısı Özbəkistanın qardaşlıq dəstəyindən məmnunluğunu bildirib.

Ümumiyyətlə, Özbəkistanı "daim Azərbaycanın yanında olan ölkə" kimi də adlandıra bilərik. Özbəkistan keçmiş Qarabağ münaqişəsi ilə bağlı məsələdə həmişə Azərbaycanın ədalətli mövqeyini dəstəkləyib. Vətən müharibəsi dövründə Özbəkistan Xarici İşlər Nazirliyi tərəfləri hərbi əməliyyatları dayandırmağa, suverenlik və ərazi bütövlüyü prinsiplərinə riayət etməklə, münaqişəni sülh yolu ilə həll etmək üçün diplomatik danışıqlara başlamağa çağırıb. Özbəkistan tərəfi Müstəqil Dövlətlər Birliyinin sədri kimi dostluq, mehriban qonşuluq və qarşılıqlı etimad münasibətlərinin möhkəmləndirilməsinin, MDB məkanındakı mübahisələrin beynəlxalq hüququn normalarına uyğun olaraq sülh yolu ilə həllinin vacibliyini bir daha təsdiqləyib.

Türk Dövlətləri Təşkilatının 2021-ci il 31 mart tarixində (həmin vaxt Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası adlanırdı) keçirilən videokonfrans formatında qeyri-formal Zirvə Görüşündə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycanı "Dağlıq Qarabağın qaytarılması və tarixi ədalətin bərpası" münasibətilə təbrik edib.

### Qardaş ölkənin hədiyyəsi - Füzulidə Özbəkistan məktəbi

Qardaş ölkənin işğaldan azad olunmuş ərazilərimizin bərpasına ilk hədiyyəsi Füzulidə inşa olunan məktəb olub. Xatırladaq ki, 2021-ci ilin noyabrında İstanbulda Türk Dövlətləri Təşkilatının VIII Zirvə Görüşündə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Füzulidə Özbəkistan büdcəsinin vəsaiti hesabına böyük məktəb inşa ediləcəyini bildirib. Qardaş ölkənin dövlət başçısının bu vədi qısa müddətdə və yüksək səviyyədə yerinə yetirilib. 2023-cü il avqustun 23-də Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyevanın iştirakı ilə Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılış mərasimi baş tutub. Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin "Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır" sözlərinin təsdiqi olan bu məktəbin inşası qardaş ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyev də Özbəkistanın Füzuli rayonunda böyük məktəb inşa etmək təşəbbüsünü ölkələrimiz arasında həmrəyliyin, dostluğun, qardaşlığın növbəti addımı kimi qiymətləndirib.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən məktəb 960 şagird yerlikdir. 2022-ci ildə başlanılan tikinti işləri yüksək keyfiyyətlə həyata keçirilib. Üç hektar ərazidə inşa edilən məktəb binası iki mərtəbə və zirzəmidən ibarətdir. Məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, 500 yerlik akt zalı, idman zalı, 320 yerlik yeməkxana, kitabxana var. Məktəbin həyətyanı ərazisində futbol meydançası, istirahət və keçiriləcək tədbirlər üçün yerlər, qaçış zolaqları, söhbətgahlar, nəzarət-buraxılış məntəqəsi, qazanxana, su çənləri, transformator yarımstansiyası inşa edilib. Burada uşaqların keyfiyyətli təhsil almaları üçün hər cür şərait yaradılıb.

### Azərbaycan-Özbəkistan investisiya əməkdaşlığının gözəl nümunəsi

Azərbaycanla Özbəkistan praktik olaraq, enerji, nəqliyyat, investisiya layihələri, turizm, dağ-mədən, avtomobil sənayesi, kənd təsərrüfatı və emal sektorlarından tutmuş, bütün istiqamətlərdə əməkdaşlıq edir. İki ölkə arasında birgə investisiya fondu yaradılıb və bu, Prezident İlham Əliyevin təbirincə desək, ən yaxşı investisiya fondlarından biridir. Dövlətimizin başçısının mətbuata bəyanatında xatırlatdığı Xankəndidəki tikiş fabriki də Azərbaycan-Özbəkistan iqtisadi və investisiya əməkdaşlığının bariz nümunəsidir.

Müəssisənin açılışını Azərbaycan və Özbəkistan prezidentləri 13 noyabr 2024-cü il tarixində ölkəmizin ev sahibliyi ilə keçirilən COP29 çərçivəsində baş tutan görüşdən sonra videoformatda ediblər. Dövlətimizin başçısı bildirib ki, bu fabrik birliyimizin daha bir rəmzidir. Bu, məşğulluqdur, bu, istehsaldır, bu, Qarabağın inkişafıdır. Özbək qardaşlarımız isə yenə burada birincidirlər. Füzulidə məktəb tikməkdə bizə ilk yardımçı oldular, işğaldan azad edilmiş ərazilərdə belə böyük bir müəssisə yaratmaqda bizə ilk köməyi göstərdilər.

Ötən il iyulun 3-də isə Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Xankəndi şəhərindəki Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan "Businesstex JV" tikiş fabrikinin fəaliyyəti ilə tanış olublar.

Fabrikdə müxtəlif növ parçadan 150 çeşiddə kişi, 300 çeşiddə qadın və 150 çeşiddə uşaq geyimləri istehsal olunur. Gələcəkdə kişi köynəklərinin, xüsusi təyinatlı və hərbi geyimlərin istehsalı planlaşdırılır. Hazırda fabrikdə hər gün 2500 ədəd müxtəlif trikotaj məhsulları istehsal edilir ki, bu rəqəmin 10 minə çatdırılması nəzərdə tutulur. Məhsulların 80 faizinin müxtəlif ölkələrə ixracı həyata keçiriləcək. Layihənin ilkin mərhələsi üzrə peşəkar təlim keçmiş 250 nəfər hazırda işlə təmin olunub. Ümumilikdə, müəssisədə 500 iş yeri yaradılacaq. Fabrikdə əsasən işğaldan azad edilmiş ərazilərə qayıdan və ətraf rayonlarda yaşayan vətəndaşlar işlə təmin olunurlar.

Müəssisədə icra olunan layihənin ilkin investisiya dəyəri 6 milyon manat təşkil edir, xammal tədarükü üçün birgə sənaye əməkdaşlığı həyata keçirilir. Fabrik yerli, Türkiyə, Özbəkistan və Çin xammalı əsasında fəaliyyət göstərir. Müəssisənin qurulmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu (ABİF) tərəfindən 3,5 milyon manat güzəştli kredit ayrılıb, təqribən 640 min manat məbləğində ƏDV və gömrük rüsumlarından azadolma tətbiq edilib. Müəssisənin fəaliyyəti regionda qeyri-neft ixracının artımına əhəmiyyətli töhfə verəcək.

Qeyd edək ki, Xankəndi tikiş fabrikinin qurulması Azərbaycan və Özbəkistan arasında iqtisadi və investisiya əməkdaşlığının dərinləşdirilməsinə dair iki ölkənin dövlət başçılarının tapşırıqları əsasında həyata keçirilib. Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan bu tikiş fabriki ölkələrimiz arasında uğurlu əməkdaşlığın rəmzidir. Layihə ölkəmizdə yüngül sənayenin inkişafı üçün yeni imkanlar yaratmaqla yanaşı, Azərbaycan ilə Özbəkistan arasında ənənəvi dostluq və iqtisadi tərəfdaşlıq əlaqələrinin inkişafına xidmət edir.

**Özbəkistanın Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpasına öz dəstəyini göstərməsi də bu ölkənin cəmiyyətinin və siyasi rəhbərliyinin respublikamıza, Azərbaycan xalqına qardaşlıq münasibətinin növbəti təzahürüdür. Prezident İlham Əliyev dövlət səfəri çərçivəsində Daşkənddə mətbuata bəyanatında Qarabağa investisiyaların cəlb olunmasında Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin xüsusi rolunu qeyd edib. "Əlbəttə, Prezident Şavkat Miromonoviç Mirziyoyevin Qarabağa investisiya cəlb edilməsində müstəsna rolunu bir daha qeyd etmək istərdim. İlk yardım - Füzulidə Mirzə Uluqbəy adına 960 şagird yerlik məktəbin tikintisi və Xankəndidə tikiş fabrikinə investisiyalar Özbəkistandan gəldi. İlk böyük sənaye müəssisəsi də Özbəkistanla bağlıdır. Həm Qarabağ bölgəsində, həm də bir çox digər bölgələrdə əlavə qarşılıqlı fəaliyyət planları mövcuddur", - deyə dövlətimizin başçısı Özbəkistanın qardaşlıq dəstəyindən məmnunluğunu bildirib**

### Qarabağın və Özbəkistanın qardaşlaşan şəhərləri

Diqqətçəkən mühüm məqamlardan biri də ondan ibarətdir ki, postmüharibə dövründə Qarabağın və Özbəkistanın ayrı-ayrı şəhərləri qardaşlaşıblar ki, bu da iki ölkənin xalqları arasında mənəvi bağların nə qədər möhkəm olduğunu bir daha təcəssüm etdirir. O cümlədən Şuşa və Xivə, Füzuli və Güliston qardaşlaşıblar. Şuşa və Xivə tarixi məkanlardır. Qardaşlaşmış bu şəhərlər mədəni-tarixi irs və turizm sahəsində sıx əməkdaşlıq edəcəklər. Füzuli və Gülistan şəhərləri isə bərpa, yenidənqurma və sosial inkişaf sahəsində əməkdaşlığı genişləndirəcəklər.

Azərbaycan Prezidenti İlham Əliyevin bu günlərdə Özbəkistana növbəti dövlət səfəri çərçivəsində isə Laçın şəhərinin Buxara şəhəri ilə qardaşlaşmasına dair sənəd imzalanıb. Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov KİV-ə açıqlamasında diqqətə çatdırıb ki, bu, regionlararası əlaqələrimizin daha da genişlənməsi baxımından əhəmiyyətlidir. Onun sözlərinə görə, qarşılıqlı təcrübə mübadiləsinin aparılması, mövcud imkanlardan səmərəli istifadə edilməsi və iqtisadi əməkdaşlığın genişləndirilməsi əsas istiqamətlərdəndir. "İki ölkənin regionları arasında təmaslar keyfiyyətcə yeni mərhələyə qədəm qoyaraq institusional xarakter alıb. Artıq geniş şəbəkə təşkil edən qardaşlaşmış şəhərlər mühüm mərkəzlər kimi çıxış edirlər", - deyə Prezidentin xüsusi nümayəndəsi vurğulayıb.

*Mübariz ABDULLAYEV*



# Zelenski Azərbaycana təşəkkür edib

Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycan dövlətinə təşəkkürünü bildirib.

Bu barədə Zelelnski X sosial şəhifəsində yazıb.

"Ukraynanı qlobal diqqət mərkəzində saxladıqlarına görə Argentina, Avstriya, Azərbaycan, Belçika, Bolqarıstan, Kanada, Xorvatiya, Avropa Şurası, Çexiya, Ekvador, Avropa Birliyi, Estoniya, Finlandiya, Fransa, Gürcüstan, Almaniya, Yunanıstan, İraq, İrlandiya, İsrail, İtaliya, İordaniya, Latviya, Litva, Lüksemburq, Moldova, Monteneqro, Şimali Makedoniya, Filippin, Polşa, Portuqaliya, Koreya Respublikası, Rumıniya, Slovakiya, Sloveniya, İspaniya, Tayland, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Birləşmiş Krallıq, Amerika Birləşmiş Ştatları və Vyetnama minnətdaram. Hər bir dəstək jesti vacibdir", - deyə Ukrayna Prezidenti bildirib.

Zelenski daha sonra qeyd edib: "Ukraynanın müstəqilliyinin bərpasının 35-ci ildönümü ilə bağlı Ukrayna və ukraynalılar haqqında fikirlərinizi yüksək qiymətləndiririk".

# Orta Dəhlizin daşınma gücü artırılır

## Qazaxıstan və Azərbaycan Ələt limanında yük terminalı yaradacaq

Qazaxıstan və Azərbaycan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) nəqliyyat-logistika infrastrukturunu gücləndirmək məqsədi daşıyan Ələt limanında intermodal yük terminalının yaradılmasını müzakirə edib. Tərəflər əməkdaşlığın gələcək inkişafı, yük axınlarının idarə edilməsi üzrə vahid sistemin yaradılması, logistika infrastrukturunun sinxron inkişafı, limanların gücünün genişləndirilməsi və donanmanın inkişaf etdirilməsi barədə razılığa gəlib. Qazaxıstan Dəmir Yolları İdarə Heyətinin sədr müavini Yerlan Koyşibayev bildirib ki, intermodal yük terminalının yaradılması nəqliyyat infrastrukturunun imkanlarını genişləndirməklə, Çin, Qazaxıstan və Azərbaycanın logistika habları arasında qarşılıqlı əlaqəni gücləndirəcək.

### Gömrük-keçid rejiminin təkmilləşdirilməsi

Qlobal geosiyasi qeyri-sabitlik şəraitində Avrasiya üçün yeni nəqliyyat-logistika çərçivəsi formalaşır ki, bu prosesdə Qazaxıstan və Azərbaycanın sıx və qarşılıqlı faydalı əməkdaşlığı əsas rol oynayır. Ölkələr Asiya ilə Avropanı birləşdirən Orta Dəhlizin inkişafına xüsusi diqqət yetirir, sərmayə qoyur. Qazaxıstandan mallar Aktau və Kurık limanları vasitəsilə Xəzər dənizi ilə Azərbaycana daşınır, sonra isə Gürcüstan və Türkiyə üzərindən Avropaya çatdırılır. Hazırda artan qlobal daşınmaların həcmini nəzərə alaraq tərəflər liman infrastrukturlarının inkişafı, konteyner terminallarının və logistika mərkəzlərinin genişləndirilməsi, inzibati və gömrük prosedurlarının sadələşdirilməsi üzərində fəal işləyir. Eyni zamanda, rəqəmsal həllər - xüsusilə elektron sənəd dövriyyəsi tətbiq olunur ki, bu da yükün qeydiyyat müddətini azaldır və marşrutun səmərəliliyini artırır.

Qazaxıstan Nəqliyyat Nazirliyinin proqnozlarına görə, ölkə ərazisindən tranzit yüklərin həcmi 2029-cu ilədək təxminən 5 dəfə artaraq 1 milyon tona çatacaq. Artımı avtomobil daşımalarının inkişafı, keçid məntəqələrinin modernləşdirilməsi, infrastrukturun yaxşılaşdırılması və qonşu ölkələrlə əməkdaşlığın genişləndirilməsi təmin edəcək. Əməkdaşlıq yalnız yük daşımalarını əhatə etmir, həm də yeni yolların və nəqliyyat qovşaqlarının inşasına, logistika infrastrukturlarının inkişafına və gömrük-keçid rejiminin təkmilləşdirilməsinə yönəlib.



### Orta Dəhliz ortaq iqtisadi həmrəylik körpüsüdür

2026-cı ilin ötən 7 ayı ərzində Orta Dəhliz üzrə tranzit daşımalarının həcmi 36 min TEU (350 konteyner qatarı) təşkil edib. 2025-ci ilin analoji dövrü ilə müqayisədə konteynerlərlə daşımaların həcmi 50 faiz, konteyner qatarlarının sayı isə 82 faiz artıb.

Orta Dəhliz hazırda Çin və Cənub-Şərqi Asiyanı Avropa ilə Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə birləşdirən nəhəng quru-dəniz nəqliyyat-logistika habı kimi qlobal nəqliyyat ailəsinin xüsusi diqqətini cəlb etməkdədir. 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılan dəhlizə digər ölkələr də qoşulub. Hazırda marşrut Çin-Qazaxıstan sərhəddindən başlayır və Avropaya qədər uzanır. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, həmçinin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının proqnozlarına əsasən, 2030-cu ilə qədər Orta Dəhliz üzrə daşımaların həcmi 11 milyon tona, 2040-cı ilə qədər isə konteyner tutumu 865 min TEU-ya yüksələcək. Bu, Azərbaycan üçün yalnız müvəqqəti alternativ və ya ehtiyat planı deyil, həm də qlobal ticarət üçün uzunmüddətli, davamlı bir yoldur.

Yeri gəlmişkən, Asiya İnkişaf Bankı (AIB) Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun yenidən qurulmasına maliyyə ayrılmasını təsdiqləyib. Maliyyələşmə planına əsasən, Qazaxıstan və Özbəkistanın yol infrastrukturlarının tam müasirləşdirilməsi, hərəkət təhlükəsizliyinin təmin olunması, habelə dəmir və avtomobil yollarında "yaşıl texnologiyaların" geniş tətbiqi nəzərdə tutulur.

### Asiya Bankının maliyyə dəstəyi

AİB komandası hesab edir ki, yönəldilən investisiyalar Qazaxıstan və Özbəkistanın regional tranzit qovşağı kimi rolunu gücləndirəcək.

Qeyd edək ki, Orta Dəhlizin modernləşdirilməsi və "yaşıl dəhliz" strategiyası Asiya Bankının son illərdə xüsusi önəm verdiyi əsas istiqamətlərdən biridir. Bank bu istiqamətdə Orta Dəhlizin yerləşdiyi dövlətlər, o cümlədən Azərbaycanla əməkdaşlığı gücləndirib və yeni sərmayə layihələrinin maliyyələşdirilməsinə razılıq verib. Asiya Bankı "Gələcək üçün dayanıqlı nəqliyyat" proqramı üzrə Azərbaycanda da nəqliyyat sisteminin ekoloji tələbatlara uyğunlaşdırılması, dəmir yolunun enerji səmərəliliyinin artırılması və "yaşıl nəqliyyat" sahələrinə sərmayələrin cəlb edilməsinə razılıq verib.

### Avropa İttifaqı da Orta Dəhlizə qoşulur

Avropa ölkələri də Orta Dəhliz ailəsinə qoşulmaq üçün öz nəqliyyat infrastrukturlarını inteqrasiya etmək yönündə addımlar atmağa başlayıb. Bolqarıstanın Qara dənizdəki Varna və Burqas limanlarının Orta Dəhlizdə birləşdirilməsi nəzərdə tutulur. Bununla bağlı Bolqarıstan Prezidenti Rumen Radev və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Astanada keçirilən Qazaxıstan-Bolqarıstan Hökumətlərarası Komissiyasının iclası çərçivəsində razılaşma əldə edilib. Tərəflər Burqas və Varna dəniz limanlarının Qazaxıstanın strateji nəqliyyat-ticarət marşrutlarına inteqrasiyası üçün birləşdirici dəhliz layihəsi üzərində işləməyə razı olduqlarını bəyan ediblər. Həmçinin Sloveniya da nəqliyyat şəbəkəsini Orta Dəhlizə birləşdirmək yönündə praktiki addımlar atmaqdadır. Cari ilin aprelində Sloveniya hökuməti Şərqlə ticarət əlaqələrini genişləndirmək niyyətini bəyan edib. Qazaxıstan və Sloveniyanın dövlət başçıları - Kasım-Jomart Tokayev və Nataşa Pirç Musarın görüşü zamanı nəqliyyat və logistika sektorunda kommunikasiyaların əhatə dairəsinin genişləndirilməsi zamanı rəsmi Lyublyana Orta Dəhlizə qoşulmaq niyyətini ifadə edib. Sloveniya hökuməti Adriatik dənizindəki Koper dəniz limanının digər nəqliyyat xətlərinə inteqrasiya olunması sayəsində Orta Dəhlizə çıxış əldə etmək istəyir.

Ümumilikdə, Orta Dəhlizdə daşınmaların həcminin və dəhlizin geoiqtisadi əhəmiyyətinin artması Avropa İttifaqının marağını bu bölgəyə daha çox fokuslayıb, Avropanın əksər ölkələri Mərkəzi Asiya-Xəzər - Avropa coğrafiyasına xüsusi önəm verərək bu bölgənin nəqliyyat infrastrukturunun yenilənməsinə dəstək niyyətlərini bəyan edirlər.

*E.CƏFƏRLİ*

# Bank sektoru üçün həyəcan siqnalı...

## Problemli kreditlərin həcmi 720 milyon manatı ötüb

Azərbaycanda bankların kredit portfeli 2026-cı ilin iyulunda artımını davam etdirərək 32 milyard manatı ötüb. Portfelin 54 faizi və ya 17 milyard 330 milyon manatı biznes kreditlərinin payına düşüb. İstehlak kreditləri 10 milyard 36,8 milyon manat olmaqla ümumi portfelin 31,3 faizini, ipoteka kreditləri isə 4 milyard 725,5 milyon manat olmaqla 14,7 faizini təşkil edib. Mərkəzi Bankın (MB) 2026-cı ilin iyul ayı üzrə statistik bülletenində qeyd edilir ki, istehlak kreditləri iyulda daha sürətli artıb, aylıq artım 119,5 milyon manat olub.

Bankların kredit göstəricilərindən aydın olur ki, əhalinin şəxsi məqsədləri üçün bank təşkilatlarından götürdükləri vəsaitlərin həcmi dayanmadan çoxalır. Bu isə dolayısı ilə kredit borclanmalarının artması və problemli kredit portfelinin yüksəlməsinə səbəb olur. Bu səbəbdən ötən 7 ay ərzində vaxtı keçmiş, yəni problemli kreditlərin məbləği 723 milyon manat təşkil edib. Bu, son bir ayda 0,5 faiz artım deməkdir. Ümumilikdə, ölkədə problemli kreditlərin məbləği yanvar ayı ilə müqayisədə 37,85 faiz, ötən ilin iyul ayı ilə müqayisədə isə 36,6 faiz artıb. Yəni, banklar son bir ildə daha çox kredit verib, ancaq nəzərdə tutulan qrafik və cədvəl üzrə kreditlərin geri alınması azalıb.

### Yüksək faiz dərəcələri borcun qaytarılmasını çətinləşdirir

Ümumilikdə, problemli kreditlərin həm aylıq, həm ilin əvvəlindən, həm də illik artım tempinin ümumi kredit portfelinin genişlənməsini əhəmiyyətli dərəcədə üstələməsi gecikmələrin kreditləşmədən daha sürətlə artdığını göstərir. Mövcud təhlillər onu göstərir ki, banklar vətəndaşların şəxsi istehlakı üçün müraciətlərin artmasını nəzərə alaraq bu sahəyə kreditlərin məbləğini artırır, ancaq ödəmə imkanlarını ciddi şəkildə araşdırmır. İstehlak kreditlərinin faizlərinin yüksək olması vətəndaşların əsas borc və faizlərlə birlikdə cəmi kredit öhdəliklərini yerinə yetirməkdə çətinliklərlə üzləşməsinə səbəb olur. İstehlak bazarında qiymətlərin artması, əmək bazarında qeyri-sabitlik, qeyri-formal məşğulluğun davam etməsi kredit ödəniş intizamını zəiflədən əsas amillərdir. Belə ki, qeyri-rəsmi gəlirlər fonunda banklar müştərilərlə razılaşır, ancaq bu, gələcək risklərin düzgün qiymətləndirilməsini çətinləşdirir. Bankların yüksək faiz dərəcələri - istehlak kreditləri üzrə illik faiz 18-24 faiz diapazonunu təyin edir, yüksək faiz qarşılığında xərclərin ümumi borca mənfi təsirlərini nəzərə almaq istəmir.




Nəticədə, istehlak kreditləri böyük bir problem yaradır. Doğrudur, artım sürəti böhranlı həddə çatmasa və ümumi kredit portfelinin 2-3 faiz nisbətində olsa da, ancaq vəziyyət ürəkaçan sayıla bilməz. Çünki son illərdə kredit portfelinin strukturunda problemli hissə azalmaq əvəzinə, daim yüksəlir.

Ən narahatlıq doğuran məqam problemli kreditlərin bu templə artmasının davam etməsi halında banklar üçün ciddi çətinliklərin yaranması və həmin borcların alınmasının risk altına düşməsi ilə bağlıdır. Yəni, həmin pulların alınması mümkün olmadığı halda dövlətin maliyyə sisteminə zərərlər dəyə bilər. Banklar problemli kreditin qanuni yollarla geri qaytarılması üçün məhkəmələrə müraciət edərək cüzi də olsa vəsaitin geri qaytarılmasına nail ola bilir. Ancaq bu, yorucu və əksər hallarda ödənişlərin illərlə yubanması da bankların maliyyə sıxıntısını həll edə bilmir.

### Risklərin artması bəzi bankların bağlanmasına səbəb ola bilər

Problemli kreditlərin bankların likvidliyinə, dayanıqlılığına, dinamikliyinə mənfi təsir göstərməsi də istisna deyil. Bu isə hazırda likvidlik təhlükəsi ilə üzləşməkdə olan bəzi kommersiya banklarının bağlanmasına gətirib çıxara bilər. Digər banklar üçün artan risklərin fonunda isə kredit faizlərinin bahalaşması, maliyyə intizamının pozulması da gözləniləndir.

Onu da qeyd edək ki, problemli kreditlərin artımında BOKT-ların da rolu var. İstehlak kreditlərinin böyük həcmi məhz BOKT-ların üzərinə düşür. Bu qurumlar riskləri təhlil etmədən insanlara istehlak kreditlərinin verilməsində fəallıq edir. Bu isə mövcud vəziyyətin yaranmasına gətirib çıxarır.

### İstehlak yox, biznes kreditlərinin həcmi artırılmalıdır

Mövcud problemin həlli yollarından biri bankların istehlak kreditlərinin həcmini azaltması, daha çox biznes kreditlərinə üstünlük verməsidir. Eləcə də faiz dərəcələrinin aşağı salınması üçün əlavə bazar mexanizmlərinin tətbiqinə ehtiyac var. Bunun üçün, banklararası rəqabətin gücləndirilməsi, kapital bazarlarının inkişaf etdirilməsi, ipoteka və istehlak kreditləri üçün təminat mexanizmlərinin genişləndirilməsi vacibdir.

Mövzunu şərh edən iqtisadçı Vüqar Bayramov bildirib ki, vaxtı keçmiş kreditlərin həcminin artmasının səbəblərindən birinin bəzi bankların borcalanların real ödəmə qabiliyyətini yetərincə nəzərə almamasıdır. Bir sıra hallarda banklar kreditə müraciət edən şəxsin ödəmə qabiliyyətini yoxlamadan kredit verirlər. Eyni zamanda, əvvəlki dövrlərdə plastik kartlar üzrə kredit xətlərinin, xüsusilə əsaslandırılmamış kredit limitlərinin açılması da vaxtı keçmiş kreditlərin həcminin artmasına səbəb olub.

İqtisadçı hesab edir ki, problemli kreditlərin artmasının qarşısını almaq üçün Mərkəzi Bank tənzimləyici tədbirləri genişləndirməlidir. Xüsusilə vaxtı keçmiş kreditləri payı yüksək olan banklarla fərdi şəkildə işlənməsinə ehtiyac var.

*E.CƏFƏRLİ*

## Ballıqaya faciəsindən 34 il ötür...

# 24 ad, 24 yarımçıq həyat

Bəzi tarixlər var ki, təqvimdə sadəcə bir gün kimi görünür, amma bir xalqın yaddaşında illərlə, hətta nəsillərlə davam edən ağrıya çevrilir. Bəzi yerlər də var ki, xəritədə kiçik bir nöqtədən başqa heç nə ifadə etmir, lakin həmin torpağın üzərində yaşananlar onu xalqın yaddaşında əbədi olaraq xüsusi bir məkana çevirir. Ballıqaya da belə yerlərdəndir.

1992-ci il avqustun 28-də Goranboy rayonunun Ballıqaya ərazisində baş verən qətliam aradan 34 il keçməsinə baxmayaraq, yaddaşlardan silinməyən, hər ildönümündə yenidən xatırlanan qanlı səhifələrdən biridir.

Bu faciəni anlamaq üçün əvvəlcə 1992-ci ilin yayına qayıtmaq lazımdır. Həmin ilin mayında Laçın rayonunun işğalından sonra minlərlə insan doğma evindən, həyətindən, illərlə yaşadığı torpaqdan didərgin düşmüşdü. Onların bir hissəsi Azərbaycanın müxtəlif bölgələrinə səpələnmiş, bir qismi isə heyvandarlıqla məşğul olduğundan, mal-qarasını qoruyub saxlamaq üçün yaylaq və otlaq sahələri axtarmağa başlamışdı. Laçının Nağdalı kəndindən olan ailələr də belə bir ümidlə Goranboyun Ballıqaya ərazisinə gəlmişdilər. Onların düşüncəsində müvəqqətilik vardı. Onlar orada yeni həyat qurmaq üçün deyil, ağır günləri birtəhər keçirmək, mal-qaranı saxlamaq və bir gün yenidən Laçına qayıtmaq ümidi ilə yaşayırdılar.

Amma Ballıqaya onlar üçün müvəqqəti sığınacaqdan ölüm düşərgəsinə çevrildi.

### Saat 5-də başlayan dəhşət...

1992-ci il avqustun 28-də səhər saat 5 radələrində Ballıqayada məskunlaşmış dinc sakinlərin üzərinə silahlı hücum edildi. Sonrakı araşdırmalar və məhkəmə materiallarında bildirilir ki, ərazidə məskunlaşan insanlar odlu silahlardan atəşə tutulub, daha sonra alaçıqlar yandırılıb. Rəsmi araşdırma materiallarında 24 nəfərin öldürüldüyü, 9 nəfərin yaralandığı göstərilir. Həlak olanların 13-ü qadın, 11-i kişi olub, 7 nəfərin yaşı 18-dən aşağı, 4 nəfərin isə 60-dan yuxarı olduğu qeyd edilir.

Bu rəqəmlərin hər birinin arxasında bir insan həyatı, bir ailə, yarımçıq ömür dayanır.

Ən kiçik qurbanın cəmi 6 aylıq Canpolad Hümbətov, ən yaşlı qurbanın isə 93 yaşlı Zeynəb Vəliyeva olması Ballıqaya qətliamının mahiyyətini bütün dəhşəti ilə ortaya qoyur. Qətlə yetirilənlər arasında altı uşaq və 13 qadın vardı. Hümbətov ailəsi isə faciənin ən ağır itki verən ailələrindən biri oldu.




Bu mənzərə qarşısında insanın ağlına ilk gələn sual budur: döyüş meydanında olmayan, əlində silah olmayan, ailələri ilə birlikdə alaçıqlarda gecələyən insanların hansı günahı vardı? Cavab yoxdur...

Çünki günahsız insanlara qarşı törədilən qətliamların heç bir məntiqi izahı olmur.

### "Səhəri gün qayıtdım və..."

Ballıqaya ilə bağlı ən sarsıdıcı şahid ifadələrindən biri Vəzir Hümbətovun xatirələridir. O, faciə gecəsi Ballıqayada olmayıb. Hadisədən bir gün əvvəl ailəsi üçün daimi yaşayış yeri tapmaq məqsədilə Göygöl rayonuna getmişdi. Səhəri gün geri qayıdanda isə həyatının ən ağır mənzərəsi ilə qarşılaşdı.

Onun həyat yoldaşı Hürzaman və altı övladı - Elçin, Bəxtiyar, İsmayıl, Nəbati, Gülnar və cəmi 6 aylıq Canpolad qətlə yetirilmişdi. Onların meyitləri sonradan yandırılmışdı.

Vəzir Hümbətov illər sonra danışarkən həmin mənzərəni belə xatırlayırdı: "Hamısını bir kəfənə yığmışam". Onun sözlərinə görə, ailəsinin meyitlərindən demək olar ki, yalnız sümük və kül qalıb, onları bir qəbirdə dəfn ediblər.

Ən dəhşətlisi isə budur ki, o, ailəsinin məzarına da uzun illər həsrət qaldı. Hümbətov ailəsini Ağdamın Güllücə qəbiristanlığında dəfn etmişdi. Ağdamın işğalı ilə həmin məzar da əlçatmaz olmuşdu. Yəni Ballıqaya qətliamı yalnız insanları öldürməmiş, sağ qalanların həyatını da illərlə davam edən həsrətə çevirmişdi. Sonradan Vəzir Hümbətov işğaldan azad edilmiş Ağdama gedərək doğmalarının məzarını ziyarət edə bildi.

### Şahidlərin yaddaşında qalan işıq fişəngləri

Ballıqaya qətliamının canlı şahidlərindən Şəhla Quliyevanın xatirələri də hadisənin necə başladığını təsəvvür etməyə imkan verir. Onun sözlərinə görə, səhər saatlarında hücumdan əvvəl işıqlandırıcı fişənglərdən istifadə edilib, daha sonra çadırlarda yatan dinc insanlar atəşə tutulub. Quliyevanın qayınanası da həmin hücum zamanı öldürülüb.

Bu detal təsadüfi görünə bilər. Amma əslində hadisənin əvvəlcədən hazırlanmış hücum olduğunu göstərən mühüm məqamlardan biri kimi tədqiqatçılar tərəfindən də vurğulanır. Tarixçi Elnur Kəlbizadə və tədqiqatçı Sultan Hümbətovun araşdırmalarına görə, fişənglərdən istifadə hücum edənlərin hazırlıqlı dəstə olduğunu düşünməyə əsas verən detallardan biridir.

Başqa sözlə, söhbət təsadüfi atışmadan deyil, dinc insanların yaşadığı məntəqəyə yönəlmiş silahlı hücumdan gedirdi.

Ballıqaya ilə bağlı ən təsirli şahid xatirələrindən biri Yaqub Məhərrəmovun danışdıqlarıdır.



Tədqiqatçı Sultan Hümbətovun verdiyi məlumata görə, Yaqub Məhərrəmov iki qadınla birlikdə yer səthindən bir qədər aşağıda yerləşən alaçıqda sağ qala bilmişdi. Onun əlində yalnız sadə bir ov silahı olub və yaxınlaşan hücumçulardan birinə atəş açıb. Bundan sonra həmin alaçıq güllələnib. Lakin içəridə olanlar torpağa uzandıqları üçün güllələr onların üstündən keçib və onlar sağ qalıblar.

Ballıqaya qətliamının qurbanlarının siyahısına baxanda hadisənin miqyası rəqəmlərdən daha aydın görünür. Bu adlar sadəcə statistik məlumat deyil. Onlar bir ailənin uşaqları, bir ananın övladları, bir qadının həyat yoldaşı idi. Qurbanların adlarının yaddaşda saxlanılması buna görə vacibdir.

### Niyə Ballıqaya haqqında bu qədər gec danışıldı?

Ballıqaya faciəsinin başqa bir ağrılı tərəfi də var. Bu qətliam uzun illər Azərbaycan ictimaiyyətinin gündəmində lazımi səviyyədə görünmədi. Tarix üzrə fəlsəfə doktoru Elnur Kəlbizadə və tədqiqatçı Sultan Hümbətovun 2022-ci ildə yayımlanan müzakirəsində bu məsələ xüsusi olaraq vurğulanıb. Kəlbizadə qeyd edib ki, hadisədən sonrakı uzun müddətdə Ballıqaya barədə geniş materialların və ciddi açıqlamaların az olması faciənin ictimai yaddaşda lazımi yer tutmasına mane olub.

Tədqiqatçı Sultan Hümbətov isə daha ağır bir məqama diqqət çəkib. Şahidlərin bir qismi artıq dünyasını dəyişib, sağ qalanların bəziləri isə hadisə zamanı çox kiçik yaşda olduqlarından xatirələri tam şəkildə yadda saxlaya bilməyiblər. Bu, tarix üçün ciddi xəbərdarlıqdır. Çünki şahid danışmadıqca, sənəd qorunmadıqca, fakt yazıya alınmadıqca yaddaşın bir hissəsi itir. Tarixin ən böyük təhlükələrindən biri də məhz budur: faciənin özü unudulmasa belə, onun canlı səsi itib gedə bilər.

### Ballıqaya bir gecənin faciəsi deyil...

Ballıqaya qətliamına yalnız 1992-ci il avqustun 28-də baş verən hadisə kimi baxmaq kifayət deyil. Bu faciə həmin dövrdə Azərbaycan əhalisinin məcburi köçkünə çevrilməsinin, insanların öz doğma torpaqlarından qovulmasının və təhlükəsiz hesab etdikləri yerlərdə belə həyatlarının qorunmamasının acı nümunələrindən biridir.

Laçından çıxan insanlar Ballıqayaya sığınmışdılar. Onlar orada ev tikməmişdilər. Onlar orada gələcək planları qurmamışdılar. Onlar sadəcə yaşamaq istəyirdilər... Bir neçə ay, bəlkə də bir neçə həftə sonra Laçına qayıdacaqlarına inanırdılar.

Amma onların "müvəqqəti" hesab etdiyi məkan 24 insanın son dayanacağı oldu. Bu baxımdan Ballıqaya tariximizin yalnız qanlı səhifəsi deyil, həm də məcburi köçkünlük dramının ən ağır insan hekayələrindən biridir.

### Ballıqaya artıq yalnız xatirə deyil, sənədləşdirilən cinayətdir

Son illərdə Ballıqaya ilə bağlı araşdırmaların və hüquqi proseslərin genişlənməsi hadisənin yalnız xatirələrdə deyil, sənədlərdə də yaşadılmasına imkan verib.

2025-ci ildə Bakı Hərbi Məhkəməsində Ballıqaya qətliamı ilə bağlı protokolların elan edilməsi zamanı hadisə yerinə baxış sənədlərində mühüm detallar açıqlanıb. Sənədlərə əsasən, Laçından məcburi köçkün düşmüş insanlar Gülüstan meşəliyinin kənarında "fin evi" və dörd alaçıqda məskunlaşıblar. Hadisədən sonra həmin yerlərdə meyitlər aşkar edilib, bəzi tikililərin isə tamamilə yandırıldığı müəyyənləşdirilib.

Bu fakt xüsusilə əhəmiyyətlidir. Çünki illər əvvəl insanların yaddaşında qalan hadisələr artıq hüquqi sənədlərdə də öz əksini tapır.

### "Mən şahidəm"

Ballıqaya qətliamının şahidlərinin danışdığı ən mühüm layihələrdən biri də Azərbaycan Televiziyasının hazırladığı "Mən şahidəm" filmidir. Film 2021-ci ildə faciənin 29-cu ildönümü münasibətilə hazırlanıb və hadisənin şahidlərinin xatirələrinə yer verib. Filmin əsas xüsusiyyətlərindən biri odur ki, hadisəyə yalnız statistik rəqəmlərlə deyil, onu yaşamış insanların yaddaşı ilə yanaşır.

Bu cür materialların əhəmiyyəti böyükdür. Çünki bir gün həmin gecəni görən insanların səsi olmayacaq. O zaman onların səsini yalnız arxivlər, filmlər, yazılar və sənədlər yaşadacaq. Tarixin canlı şahidləri bir gün susa bilər, amma onların sözləri susmamalıdır.

### Unutmaq yox, gələcək nəsillərə çatdırmaq!

Bu gün Ballıqaya haqqında danışmaq yalnız keçmişi xatırlamaq deyil. Bu, həm də gələcəyə məsuliyyətdir. Tarix yalnız qələbələrdən ibarət olmur. Xalqın yaddaşı onun itkilərini də yaşatmalıdır. Əgər bir xalq 6 aylıq körpənin, 12 yaşlı uşağın, 93 yaşlı qadının ölümünü unutmazsa, deməli, tarixə yalnız rəqəmlərlə deyil, insan taleləri ilə yanaşır.

Ballıqaya susmur. Orada öldürülənlərin səsi illərdir daşlardan, torpaqdan, arxiv sənədlərindən, şahid xatirələrindən gəlir. Həmin səsin eşidilməsi isə yalnız keçmişə ehtiram deyil, bu, gələcəyə verilən söz - günahsız insanın taleyinin bir daha belə yazılmaması üçün yadda saxlamaq sözüdür...

*Yeganə BAYRAMOVA*

# Orta ixtisas təhsili "ehtiyat variant" deyil



## Məleykə Abbaszadə: Ötən ilin keçid balı builki keçid balının göstəricisi kimi qəbul edilməməlidir

"İxtisas seçimi öncəsi dəfələrlə qeyd edirdik ki, ötən ilin keçid balı builki keçid balının göstəricisi və ya təminatı kimi qəbul edilməməlidir. Keçid balı əvvəlcədən müəyyən edilmir. O, konkret ildə həmin ixtisasa neçə nəfərin, hansı nəticələrlə müraciət etməsindən və neçə plan yerinin olmasından asılı olaraq müsabiqənin sonunda formalaşır". Bunu Dövlət İmtahan Mərkəzinin (DİM) İdarə Heyətinin sədri Məleykə Abbaszadə bildirib.

Onun sözlərinə görə, ikinci cəhddə başqa ixtisas qrupu üzrə imtahan vermək imkanından istifadə edənlərin sayı azdır: "Burada başqa mühüm bir imkan da var. Artıq uzun illərdir ki, abituriyentlər iki dəfə qəbul imtahanında iştirak edə və müəyyən şərtlər daxilində ikinci cəhddə başqa ixtisas qrupu üzrə imtahan verə bilirlər. Lakin bu imkandan istifadə edənlərin sayı azdır. Birinci nəticə son deyil, amma o, hazırlıq səviyyəsi, güclü və zəif tərəflər barədə ciddi məlumatdır. İkinci cəhd yalnız "bu dəfə mütləq daha yüksək bal toplayacağam" ümidi deyil, strategiyanı yenidən qiymətləndirmək imkanı olmalıdır".

DİM sədri qeyd edib ki, boş qalan yerlər üzrə seçim mərhələsində sistem abituriyentlərə daha geniş imkanlar yaradır. Belə ki, abituriyent eyni elektron ərizədə həm ali təhsil müəssisələrinin boş qalan yerlərini, həm də tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin ixtisaslarını göstərə bilər: ""Siyahıda 20-dək ixtisas kodu yazmaq mümkündür və onların ardıcıllığını abituriyent özü müəyyən edir. Yəni, məsələn, Bakıdakı bir kollec ixtisasını regiondakı ali məktəb ixtisasından əvvəl və ya əksinə yazmaq mümkündür - bu, abituriyentin seçimidir".

Bildirilib ki, müsabiqə iki fərqli seçim üzrə aparılır. Ali təhsil müəssisələrinin boş qalan yerlərinə qəbul zamanı müvafiq qrup üzrə ümumi nəticə, yəni birinci və ikinci mərhələnin nəticələri nəzərə alınır. Orta ixtisas təhsili müəssisələrində isə müsabiqə yalnız birinci mərhələnin - buraxılış imtahanının ümumi balı əsasında aparılır: "Bu fərq çox vacibdir. Məsələn, III qrup üzrə blok imtahanında tələb olunan minimum nəticəni toplamayan abituriyent ali məktəbin həmin qrup üzrə müsabiqəsində iştirak etməyə bilər. Amma onun buraxılış imtahanında yüksək nəticəsi varsa, orta ixtisas təhsili müəssisələrinin bir çox ixtisasları üzrə kifayət qədər rəqabətqabiliyyətli ola bilər".

Məleykə Abbaszadə vurğulayıb ki, "Abituriyent" jurnalının 5-ci nömrəsində tam orta təhsil bazasında orta ixtisas təhsili üzrə təxminən 18,4 min plan yeri təqdim olunub.

İxtisaslar ali məktəblərdə qəbul edilən əsas istiqamətlərə məzmun baxımından şərti şəkildə uyğunlaşdırıldıqda, təxminən 5,7 min yerin (31 faiz) II qrupa yaxın iqtisadiyyat, maliyyə, idarəetmə, turizm və logistika istiqamətlərinə, 5,1 min yerədək (28 faiz) IV qrupa yaxın tibb, biologiya, aqrar və ekoloji istiqamətlərə, 4,8 minədək yerin (26 faiz) I qrupa yaxın İT, texnika, energetika, nəqliyyat, rabitə və sənaye istiqamətlərinə aid olduğu bildirilib. Həmçinin 1,8 minədək yer (10 faiz) III qrupa yaxın sosial, humanitar və pedaqoji istiqamətləri, təxminən 0,9 min yer (5 faiz) isə V qrupa yaxın incəsənət, dizayn və qabiliyyət tələb edən istiqamətləri əhatə edir.

"Bu bölgü DİM-in rəsmi qrup təsnifatı deyil, ixtisasların məzmununa əsaslanan analitik müqayisədir. Bu rəqəmlər göstərir ki, orta ixtisas təhsili yalnız 'ali məktəbə qəbul ola bilməyənlər üçün ehtiyat variant' deyil. Əksinə, burada iqtisadiyyat və idarəetmədən başlayaraq İT və texniki sahələrə, səhiyyə və aqrar istiqamətlərdən sosial və yaradıcı peşələrə qədər geniş seçim mövcuddur.

Kolleci bitirən subbakalavrların sonradan uyğun bakalavriat ixtisasları üzrə ali təhsilin bakalavriat səviyyəsində müsabiqə yolu ilə təhsillərini davam etdirmək hüququ da mövcuddur.

Ona görə də "mütləq ali məktəbə qəbul olmalıyam" düşüncəsi ilə təsadüfi ixtisas seçmək düzgün deyil. Bəzən yaxşı seçilmiş orta ixtisas təhsili proqramı insanın maraqlarına və gələcək peşəsinə uyğun olmayan ali məktəb ixtisasından daha doğru başlanğıc ola bilər", - DİM sədri əlavə edib.

# Peşə təhsili müəssisələrinə tələbə qəbulunun II mərhələsinə start verilib




2026/2027-ci tədris ili üzrə peşə təhsili müəssisələrinə tələbə qəbulunun II mərhələsinə start verilib.

Peşə Təhsili üzrə Dövlət Agentliyindən bildirilib ki, qəbulun II mərhələsində müraciətlər sentyabrın 3-ü saat 18:00-dək həyata keçiriləcək.

Qəbul qaydalarına əsasən, ilk və texniki peşə təhsili səviyyələri üzrə tələbə qəbulu ərizəçinin attestatında göstərilən müvafiq fənlər üzrə qiymətlərin orta balı əsasında aparılır.

Yüksək texniki peşə təhsili səviyyəsi üzrə qəbul isə buraxılış imtahanlarının nəticələri əsasında həyata keçirilir.

Namizədlər qəbul üçün elektron qaydada portal.edu.az platforması vasitəsilə müraciət edə bilərlər.

# Buğakar - Zəngəzurun unudulmayan qədim yurdu

Buğakar qədim Zəngəzur mahalının Mığrı rayonunda yerləşmiş, tarixən Azərbaycan türklərinin yaşadığı qədim yaşayış məntəqələrindən biridir. Dağlar qoynunda, Mığrı çayının sahilində yerləşən bu yurd özünəməxsus təbiəti, zəngin tarixi, qədim toponimi, məhsuldar torpaqları, məşhur meyvəçilik ənənələri və müqəddəs ziyarətgahı ilə seçilmişdir.



Buğakar Mığrı rayon mərkəzindən təxminən 12 kilometr şimal-qərbdə yerləşirdi. Kənd yüksək dağlar, dərələr və sıldırım qayalarla əhatə olunmuşdu. Ərazinin coğrafi mövqeyi kəndə həm özünəməxsus təbii gözəllik, həm də qədim yollar üzərində mühüm əhəmiyyət qazandırmışdı. Buğakar ətrafından keçən qədim yollar Zəngəzuru Naxçıvan və Ordubad istiqamətləri ilə bağlayan tarixi keçidlərdən biri olmuşdur.

Buğakar adının mənşəyi ilə bağlı müxtəlif fikirlər mövcuddur. Ən geniş yayılmış izahlardan birinə görə, kəndin adı IX əsrdə Abbasi xilafətinin görkəmli sərkərdəsi Buğa əl-Kəbir ət-Türkinin adı ilə bağlıdır. Tarixi mənbələrə görə, Buğa əl-Kəbir 837-ci ildə Babək hərəkatının yatırılmasında, 838-ci ildə isə Bizansla Amuriya döyüşündə iştirak etmişdir. Bu yanaşmaya görə, "Buğakar" toponimi "Buğanın yurdu" mənasını daşıyır.

Digər izahlarda isə Buğakar adının ərazinin dağlıq relyefi, qayalıqları və qədim keçidləri ilə əlaqəli olduğu ehtimal edilir. Bu baxımdan toponimin yaranması ilə bağlı müxtəlif elmi və tarixi yanaşmaların mövcudluğu Buğakar adının qədimliyini və bölgənin tarixi-coğrafi xüsusiyyətləri ilə bağlılığını göstərir.

Bu torpaqlarda əsrlər boyu Azərbaycan türkləri yaşamış, burada ailələr qurmuş, təsərrüfat yaratmış, öz dilini, adət-ənənələrini və milli-mənəvi dəyərlərini qoruyub saxlamışlar. Buğakar yalnız yaşayış məntəqəsi deyil, öz daxili həyatı, təsərrüfatı və mənəvi dünyası olan canlı bir Azərbaycan kəndi olmuşdur.

XIX əsrin sonu və XX əsrin əvvəllərinə aid statistik məlumatlar kənddə azərbaycanlı əhalinin yaşadığını təsdiqləyir. 1897-ci ildə Buğakarda 139 nəfər, 1904-cü ildə 194 nəfər, 1914-cü ildə isə 96 nəfər azərbaycanlı qeydə alınmışdır. Sonrakı illərdə də kənddə Azərbaycan türkləri yaşamışlar.

Buğakarın əhalisi əsasən əkinçilik, bağçılıq, maldarlıq və arıçılıqla məşğul olurdu. Kəndin 100 hektardan çox məhsuldar torpaqları olduğu bildirilir. Dağlıq ərazinin özünəməxsus iqlimi və torpaq xüsusiyyətləri kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafına imkan verirdi.

Buğakar xüsusilə özünün məşhur "Buğakar alması" ilə tanınırdı. Bu alma növü Zəngəzurda və Naxçıvan bölgəsində yüksək keyfiyyəti, dadı və ətri ilə seçilirdi. Kənddə bundan başqa armud, gavalı, gilas, qoz və müxtəlif tərəvəz məhsulları da yetişdirilirdi.

Bağlar Buğakarın kənd həyatının ayrılmaz hissəsi idi. Hər bağ, hər ağac, hər bulaq kənd sakinlərinin gündəlik həyatının, zəhmətinin və xatirələrinin bir parçası idi. Bu səbəbdən Buğakarın adı yalnız yaşayış məntəqəsi kimi deyil, həm də zəngin bağçılıq ənənələri ilə yadda qalmışdır.

Buğakarın tarixi yalnız sakit kənd həyatından ibarət deyildi. XX əsrin əvvəllərində Zəngəzurda baş verən siyasi və hərbi hadisələr kəndin taleyinə də ağır təsir göstərdi.

1918-ci il hadisələri Buğakar tarixinin ən faciəli səhifələrindən birini təşkil edir. Kənd erməni silahlı dəstələrinin hücumlarına məruz qalmış, dinc əhali doğma yurdunu tərk etməyə məcbur olmuşdur. Sağ qalanların bir hissəsi Araz çayını keçərək Cənubi Azərbaycana sığınmış, bir qismi isə Azərbaycanın müxtəlif bölgələrinə köçmüşdür.

Lakin doğma yurda bağlılıq Buğakar sakinlərinin bir hissəsini sonradan kəndə qaytarmışdır. İnsanlar yenidən evlərini qurmuş, torpaqlarını becərmiş, bağlarını salmış və kənd həyatını bərpa etmişlər.

Buğakarın taleyində növbəti ağır mərhələ sovet hakimiyyəti illərində yaşandı. Mənbələrdə kəndin ləğvi və əhalisinin köçürülməsi ilə bağlı müxtəlif tarixlər göstərilsə də, 1939-cu ildə kənd sakinlərinin Mığrı rayonundakı Lehvaz kəndinə köçürülməsi barədə məlumat xüsusi olaraq qeyd olunur. Köçün rəsmi səbəbi dağlıq ərazidə yaşayışın çətinliyi kimi göstərilmişdir.

Lakin bu inzibati qərar Buğakarın əsrlər boyu formalaşmış kənd həyatının dağıdılmasına səbəb olmuşdur. 1939-cu ildən sonra kəndin əhalisi Lehvazda məskunlaşdırılmış, Buğakarın kənd təsərrüfatı məhsullarının isə inzibati qaydada Lehvaz kolxozuna təhvil verildiyi bildirilmişdir.

Beləliklə, bir kəndin yalnız insanları deyil, onun iqtisadi müstəqilliyi və yaşayış sistemi də aradan qaldırılmışdır. Ancaq Buğakarın ən mühüm mənəvi sərvətlərindən biri kənddən sonra da insanların yaddaşında yaşamaqda davam edirdi.

Bu, Buğakar piri - Sultan Seyid Əhməd Ağa ziyarətgahı idi. Kənd ərazisində yerləşən bu qədim ziyarətgahın IX əsrə aid olduğu və Azərbaycan memarlığı üslubunda inşa edildiyi bildirilir. Bu müqəddəs məkan uzun illər yalnız Buğakar sakinlərinin deyil, Naxçıvan, Ordubad və ətraf rayonlardan gələn insanların da ziyarət etdiyi mühüm dini ocaq olmuşdur.

Buğakar piri xalq arasında böyük ehtiramla qarşılanırdı. İnsanlar müxtəlif niyyətlərlə buraya gəlir, dua edir, nəzir verirdilər. Xüsusilə dini mərasimlər və Məhərrəm ayı zamanı ziyarətgahın ətrafında böyük canlanma yaranırdı.

Sultan Seyid Əhməd Ağa məqbərəsinin kimə məxsus olması ilə bağlı müxtəlif tarixi məlumat və xalq rəvayətləri mövcuddur. Bəzi mənbələrdə burada Sultan Seyid Əhmədin dəfn olunduğu bildirilir. Digər məlumatlarda isə ziyarətgahın qədim dövrdə bölgədə yaşamış dini və tarixi şəxsiyyətlərlə əlaqəsi göstərilir.

Bu fərqli rəvayətlərə baxmayaraq, dəyişməyən bir həqiqət var: Buğakar piri əsrlər boyu insanların inancında və mənəvi həyatında mühüm yer tutmuş müqəddəs məkan olmuşdur.

Kəndin inzibati baxımdan ləğv edilməsindən sonra belə Buğakar adı və onun müqəddəs ziyarətgahı insanların yaddaşında yaşamaqda davam etmişdir.

1988-ci ildən başlayaraq Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların kütləvi deportasiyası Buğakarla bağlı yaddaşın daha bir ağır mərhələsini yaratdı. Mığrı rayonunda yaşayan azərbaycanlılar da doğma yurdlarını tərk etməyə məcbur oldular. Bu proses nəticəsində Buğakarın insanları da ata-baba torpaqlarından birdəfəlik ayrıldılar.

Beləliklə, bir vaxtlar kənddə yaşayan insanların nəsilləri müxtəlif bölgələrə səpələndi. Onlar özləri ilə doğma kəndlərinin xatirələrini, ailə yaddaşını, adət-ənənələrini, ata-babalarının danışdıqları əhvalatları və Buğakarın adını apardılar. Buğakar piri də sonrakı illərdə dağıntıya məruz qaldı. Qədim ziyarətgahın məhv edilməsi ilə yalnız bir tikili deyil, bütöv bir xalqın dini-mədəni yaddaşının mühüm hissəsi də zədələndi.

Bu gün qədim Buğakar kəndinin yerində əvvəlki həyatın izləri qalmışdır. Dağılmış evlərin qalıqları, kəndin tarixi məkanı və ziyarətgahın izləri bir vaxtlar burada həyat olduğunu xatırladır. Lakin kəndin fiziki olaraq yox olması onun yaddaşdan silinməsi demək deyil. Çünki yurd yalnız evlərdən, küçələrdən və torpaqdan ibarət deyil. Yurd insanın yaddaşında yaşayan torpaqdır.

Buğakar da bu gün ilk növbədə insanların yaddaşında yaşayır.

Buğakar ata-babalarının xatirələrində yaşayır.

Buğakar doğma torpaq həsrətində yaşayır.

Buğakarın adı illər keçməsinə baxmayaraq, nəsildən-nəslə ötürülür.

Buğakar almasının adı həmin kəndin məhsuldar bağlarını, zəhmətkeş insanlarını və kənd həyatını xatırladır. Buğakar piri həmin torpaqların mənəvi yaddaşını xatırladır. Sultan Seyid Əhməd Ağa ziyarətgahı bu yurdun dini və mədəni tarixindən xəbər verir.

Buğakarın tarixi yalnız bir kəndin tarixi deyil. Bu tarix Zəngəzurun Azərbaycan kəndlərinin ümumi taleyinin bir hissəsidir. Burada doğma torpaqda qurulmuş həyat, insanların zəhməti, kənd təsərrüfatı, bağçılıq ənənələri, dini-mənəvi dəyərlər və nəhayət, yurdlarından ayrı salınmış insanların faciəsi öz əksini tapır.

Bu gün Buğakar haqqında danışmaq yalnız keçmişi xatırlamaq deyil. Bu, tarixi yaddaşı qorumaqdır. Bu, ata-baba yurdlarının adlarını gələcək nəsillərə çatdırmaqdır.

Bu, vaxtilə həmin torpaqlarda yaşamış insanların xatirəsinə ehtiram göstərməkdir. Buğakarın adı yaşadıqca, orada yaşamış insanların xatirəsi də yaşayacaq.

Bir gün Zəngəzurun qədim yaşayış məntəqələrinin tarixi daha geniş araşdırılacaq, onların kənd adları, yolları, bulaqları, bağları, qəbiristanlıqları, pirləri və yaşayış yerləri yenidən yaddaşlarda canlandırılacaq.

Buğakar da həmin tarixi yaddaşın mühüm səhifələrindən biri kimi öz yerini qoruyacaq. Çünki zaman keçə bilər, nəsillər dəyişə bilər, insanlar müxtəlif yerlərdə yaşaya bilərlər. Amma ata-baba yurdunun adı insanın qəlbindən silinmir.

Buğakar sadəcə bir kənd adı deyil.

Buğakar bir yurd adıdır.

Buğakar bir tarixdir.

Buğakar bir yaddaşdır.

Buğakar Zəngəzurun dağlarında qalan, lakin insanların qəlbindən heç vaxt silinməyən doğma torpaqdır.

Və bu yurdun adı gələcək nəsillərə çatdırılmalıdır.

Çünki tarix də, yaddaş da, insan xatirəsi də deyir:

Buğakar vardı.

Buğakarın insanları vardı.

Buğakarın bağları vardı.

Buğakarın "Buğakar alması" vardı.

Buğakarın müqəddəs piri vardı.

Buğakarın öz yurdu vardı.

Buğakar bu gün də yaşayır - insanların yaddaşında, xatirəsində və doğma yurda qayıdış ümidində.

*Akademik Fikrət Əliyev,*
*Rövşən Süleyman oğlu Həsənov*
*(BAŞYURD)*

## Avropa İttifaqının yeni miqrasiya qaydaları sınaq qarşısında



Avropa İttifaqında (Aİ) yeni miqrasiya qaydalarının tətbiqi "Eurodac" məlumat bazasının imkanlarını və üzv dövlətlər arasında məsuliyyət bölgüsünü yenidən gündəmə gətirib.

2025-ci ildə sistem 210 mindən çox halda sığınacaq axtaran şəxsin daha əvvəl başqa Aİ ölkəsində qeydiyyatdan keçdiyini müəyyən edib. Lakin Dublin mexanizmi çərçivəsində geri qaytarılma prosedurlarının icrası hələ də zəif olaraq qalır. Avropa Komissiyasının məlumatına görə, ötən il 111 min 708 transfer sorğusundan yalnız 16 min 620-si faktiki həyata keçirilib. İtaliya, Almaniya, Yunanıstan, İspaniya və Fransa "Eurodac"a daxil edilən məlumatların 74 faizini təmin edib.

Ekspertlər bildirirlər ki, genişləndirilmiş sistem daha çox məlumat toplasa da, bu, avtomatik olaraq dövlətlər arasında əməkdaşlığı təmin etmir. Yeni Miqrasiya və Sığınacaq Paktı həmrəylik mexanizmi vasitəsilə yükün bölüşdürülməsini nəzərdə tutur. Lakin mexanizmin səmərəliliyi siyasi iradə, inzibati imkanlar və üzv ölkələrin qaydalara əməl etməsindən asılı olacaq.

## Nepalda dağıdıcı daşqın: 1500 nəfər itkin...



Nepalda baş verən dağıdıcı daşqın nəticəsində 800-dən çoxu xarici turist olmaqla, təxminən 1500 nəfər itkin düşüb.

İnfrastruktur naziri Sunil Lamsalın məlumatına görə, ölkənin infrastrukturuna təxminən 1,3 milyard dollar ziyan dəyib.

Xilasetmə əməliyyatına 5 mindən çox hərbçi və polis cəlb olunub. Nepal ordusunun mətbuat katibi Raca Ram Basnetin sözlərinə görə, onlar 20-si xarici vətəndaş olmaqla, 125 nəfəri xilas ediblər. O bildirib ki, ən çox zərər çəkmiş ərazilərə helikopterlərlə çadırlar, ərzaq və digər zəruri əşyalar atılıb.

Çinin Nepaldakı səfiri "X" platformasında qeyd edib ki, ölkə Nepala təcili yardım və maliyyə vəsaitlərinin çatdırılmasını koordinasiya edir.

Azərbaycanın Xarici İşlər Nazirliyi Nepal-Çin sərhədindəki faciə ilə bağlı başsağlığı verib. Bu barədə nazirliyin sosial media hesabında paylaşım edilib.

"Nepal-Çin sərhəd bölgəsində baş verən, insan tələfatına və genişmiqyaslı dağıntılara səbəb olan dəhşətli daşqın və torpaq sürüşmələri ilə əlaqədar dərin kədər hissi keçiririk.

Bu faciə nəticəsində həyatını itirənlərin ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, xəsarət alanlara tezliklə şəfa diləyirik.

Hazırda davam etdirilən axtarış-xilasetmə işləri nəticəsində itkin düşən şəxslərin hamısının sağ-salamat tapılacağına ümid edirik", - deyə paylaşımda bildirilir.

Avropa Komissiyasının sədri Ursula Fon der Lyayen "X" platformasında bildirib ki, Avropa İttifaqı əlavə yardımlar səfərbər etməyə hazırdır.

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası daşqının nəticələrinin aradan qaldırılması istiqamətində Nepal Qızıl Xaç Cəmiyyətinin fəaliyyətinə dəstək göstərmək üçün 1,24 milyon dollar məbləğində təcili yardım ayırır.

"ABŞ təbii fəlakətlərə cavab tədbirləri üzrə məsləhətçi göndərir və 500 min dollar ayırır", - deyə Dövlət Departamenti bildirib.

Ümumdünya Səhiyyə Təşkilatı təcili yardım göstərilməsi üçün dərman preparatları və çoxməqsədli çadırlar da daxil olmaqla, zəruri tibbi ləvazimatlar göndərib.

Çərşənbə günü səhər Nepalda baş vermiş dağıdıcı daşqına səbəb olan qar və daş uçqunu 1 kilometrdən çox hündürlükdən vadiyə düşüb. "The New York Times" qəzeti geoloqların ilkin təhlilinə istinadən bu barədə yazıb.

Müşahidə kameralarının sosial şəbəkələrdə yayılan görüntülərində nəhəng su axınının tikililəri, yaşayış evlərini və körpüləri dağıtdığı, fəlakətdən qaçan insanları yaxaladığı əks olunub.

## Ukrayna ilə Rusiya arasında yeni görüş keçiriləcək?



Müharibənin başa çatdırılması üzrə danışıqlar çərçivəsində Ukrayna və Rusiya nümayəndə heyətlərinin yeni görüşü sentyabrda baş tuta bilər.

"RBK-Ukrayna" xəbər verir ki, bu barədə Ukrayna Prezidenti Ofisinin rəhbəri Kirill Budanov "Novosti.LIVE"a şərhində bildirib.

Onun sözlərinə görə, hazırda danışıqlar aparılmır, lakin onun bərpa edilməsi planlaşdırılır.

"Mən danışıqların bərpa olunacağına ümid edirəm. Eyni zamanda amerikalılarla da. Onlarsız heç cür mümkün deyil", - Budanov deyib.

O qeyd edib ki, danışıqlar prosesi çərçivəsində növbəti hadisələr artıq sentyabrda baş verə bilər.

# Şah İsmayıl Xətai: imtina etmək, yoxsa tarixin gizlin və gerçəklərinə baxmaq



Azər TURAN

əvvəli ötən saylarımızda

**Xətainin şair kimliyi**

Şeirləri qurduğu dövlətin ideoloji məzmununu əks etdirən Xətai nadir və hamıdan fərqli şairdir. Professor Oqtay Əfəndiyevin "Azərbaycan Səfəvilər dövləti" kitabında diqqəti cəlb edən belə mühüm bir məqam var: "Hekayə üslubunda olan mənbələr qızılbaşlar hərəkatının ideologiyası... haqqında mühakimə yürütməyə imkan vermir. Bu cəhətdən Şah İsmayıl Xətainin öz divanı böyük əhəmiyyət kəsb edir".

Bəzən Xətainin şairliyi də şübhə altına alınır. Xətai imzası ilə yazılan şeirlərin ona aid olmadığı iddia olunur. Bu şeirləri Xətai yazmayıbsa, belə çıxır ki, "XVI əsrdəki Azərbaycan türk ədəbiyyatının... dil və yaradıcılıq ünsürləri vasitəsilə və içərisinə də aldığı bədii və lisani komponentlərin genişliyi, horizontal meyarı Xətai ilə təmsil olunur" deyən Bəkir Çobanzadə yanılırdı? Min beş yüzillik poeziya tariximizdə bu miqyasda ədəbi dəyər daşıyan və bu miqyasda elmi dəyərini alan Xətai deyil, kimdirsə, başqa bir şairdir?

**Azərbaycan mədəniyyətinin dominantı olan Təbriz miniatür məktəbi də, Şeyx Səfi xalçası da Səfəvi irsidir. Biz imtina edək, müasir İranmı sahib çıxsın?**

Fazil Mustafa bildirir ki, "səfəviliyin bizim bugünkü milli mirasa aid edilməsinin heç bir məntiqi izahı yoxdur". Doğrudanmı, yoxdur?

Səfəvi varisliyindən imtina ediriksə, o zaman çox şeylərdən imtina etməliyik. Milli varlığımızın mədəni kimlik simvolu olan Təbriz miniatür məktəbindən imtina etməliyik? Sultan Məhəmmədin, Ağa Mirəkin, Mir Müsəvvirin, Mir Seyid Əlinin, Sadiq bəy Əfşarın bizim mədəniyyətə dəxli olmadığına inanmalıyıq? Xətainin bədii irsindən imtina etməliyik? "Şeyx Səfi" xalçasının bizə aid olmadığını söyləməliyik? Şah İsmayılın sarayındakı Aşıq Qurbanidən imtina etməliyik? Bütün bunlar bizim mədəni kimliyimizin rəmzləri deyilmi? Biz bu mirasla varıq. İmtina etsək, sözün bütün mənalarında quru yerdə qalmarıqmı?

**Zəruri bir əlavə: Şah İsmayıl Xətainin Bakıdakı heykəli**

Şah İsmayıl Xətainin Bakıdakı heykəli ilə bağlı internetdə axtarış verdim. 1993-cü ildə açıldığı bildirilir. Memarları kimdir, onlar da qeyd olunub. Ancaq hansı ayda və ayın neçəsində açılıb, açılışda kimlər çıxış edib? - bu barədə məlumat yoxdur. "Ədəbiyyat qəzeti"nin 1993-cü il komplektini vərəqləyirəm. Həmin ilin 11 iyun tarixli sayında Xətainin heykəlinin şəkli, yanında da belə qısa bir məlumat verilib: "Ötən şənbə günü Xətai rayonunda Şah İsmayıl Xətainin abidəsinin təntənəli açılış mərasimi olmuşdur (Abidənin müəllifləri Xalq rəssamı İbrahim Zeynalov, heykəltəraş Zakir Mehdiyev, memarlar isə Pərviz Hüseynov və Hacı Əliyevdir).

Mərasimi giriş sözü ilə rayon icra hakimiyyətinin başçısı Zəlimxan Məmmədli açaraq Şah İsmayıl Xətainin Azərbaycan dövlətinin qurucusu kimi əvəzsiz xidmətlərindən danışmışdır.

Mərasimin açılışında prezidentin humanitar məsələlər üzrə müşaviri R.İsmayılov, mədəniyyət naziri P.Bülbüloğlu, Bakı və kəndlər birliyinin sədri N.Ağayev, abidənin müəllifi İ.Zeynalov və başqaları çıxış etmişlər.

Abidənin lentinin kəsilməsi ilə bir arada Azərbaycanın dövlət himni səsləndirilmişdir".

Başqa heç nə yazılmayıb. Açılış mərasimindən foto da yoxdur.

Bir də qəzetin ilk səhifəsində Xətainin bu misraları:

*Xətayi, dünyanın ötəsi fani,*
*Bizdən əvvəl bunda gələnlər qanı?*
*Sanma daim şad yürüyə düşməni,*
*Bir gün olur növbət ona da gələ.*

Tarixə fikir verdinizsə, abidə Azərbaycanın ən çətin günündə, qardaş qırğınlarının bir addımlığında ucaldılıb.

Abidənin açılışında mədəniyyət naziri kimi söz deyən Polad Bülbüloğlunun indi Xətai irsinin müzakirə olunduğu günlərdə Parlamentin Mədəniyyət Komitəsinin sədri kimi sözünə ehtiyac var...

**Əmir Teymurla Şah İsmayılın ortaq tərəfi - isna-əşəriyyə məsləki**

Teymurun məzhəbi barədə tarixçilər arasında tərəddüdlü və fərqli qənaətlər mövcuddur. Zəki Vəlidi Toğanın yazdığı kimi, "Temürə gəlincə, o, Mazandaranda müfrid şiəliklə, Suriyada müfrid sünniliklə mücadilə etdi. Mazandaranlılar onu Yezid tələqqi etdikləri halda, suriyalılarca o şiə idi".

Ancaq tarixdən bəllidir ki, Əmir Teymur bir əhli-beyt sevdalısı olub. Məmləkətində peyğəmbər övladlarına mənsub ayrıca məqamlar bərqərar edib... Hətta Fuad Köprülünün "Türk Edebiyatında ilk Mutasavvıflar" əsərində Hafiz Ebruya, Leon Kahuna istinadən yazdığı kimi, "Teymir əski Çingiz Yasasını qaldıraraq isna-əşəriyyə məsləkindən mülhəm (şiə məsləkdən ilhamlanaraq) yeni bir təşkilat", yaxud dini-məfkurəvi sistem yaratmışdı.

**Əli bəy Hüseynzadə Teymurdan sonra tarixin ibrət səhnəsinə I Şah İsmayılı çıxarırdı**

Əvvəldə də qeyd etdiyim kimi, Hüseynzadənin 2500 illik türk tarixindən bəhs edən "Siyasəti-fürusət" əsərində "Teymurnamə" fəsli "Səfəvilər" fəsli ilə davam edir, Teymur övladlarından sonra türk cahan hakimiyyəti qafiləsini səfəvilər davam etdirir. Hüseynzadə Çaldıran savaşına Ankara meydan savaşının, Şah İsmayılla Sultan Səlimin arasındakı ixtilafa Əmir Teymurla Yıldırım Bəyazid arasındakı qırğınlığın davamı kimi baxır. Diqqəti Teymurilərlə Səfəvilər şəcərəsi arasında gizliaşkar bağların mövcudluğuna cəlb edir. Təlqin edir ki, ogünkü İran Turanın bir qismidir. Bir az sonra Azərbaycan valisi Abbas Mirzə Qacarın dilindən "Herat, Xarəzm, Türkmən yerləri və sairə dəxi mənən şu müahidə ilə (Türkmənçay müqaviləsi ilə) hakimiyyətimizdən çıxdı, - deyərkən də Hüseynzadə bunu xatırladırdı... Hüseynzadə Səfəviliyin qurucu atası Səfiəddini xatırladır, Xətainin nəsil şəcərəsi barədə: "Ərdəbildə zaviyənişin olmuş bulunan Şeyx Səfiəddin Ələvi nam seyidin əhfadındandır (nəslindəndir)" deyir. "Şeyx Səfiəddin isə həzrəti-imam Musayi-Kazimin nəslindəndir. Səfəviyyənin İran taxtına nailiyyətləri sırf seyid olduqları üçün olmayıb, bunun bir neçə səbəbi vardır. Əvvəla, Şeyx Səfi fəzl və kamalı, zöhd və təqvası sayəsində əhli-beytə məhəbbətlə məşhur Teymurun fövqəladə hörmətinə məzhər oldu. Bu üzdən əvvəla, dinin qədr və etibarı getdikcə artdı. Saniyən, bunlar Ağqoyunlularla əqrəbalıq peyda etdilər. Şah İsmayılın böyük validəsi, yəni nənəsi Ağqoyunlu hökmdarlarından Uzun Həsənin həmşirəsi olduğu kibi anası Aləmşah bəyim də onun qızıdır. O halda Səfəviyyə sülaləsi validə cəhətindən türk olan Ağqoyunluların təmadisi (davamı) sayılır. Şah İsmayıl Şirvanı zəbt və bədə Ağqoyunluların son hökmdarını təmamilə məğlub edib, dövlətlərinə xatimə çəkdikdən sonra Təbrizdə elani-səltənət elədi".

İbn Bəzzaz da 1350-ci ildə yazdığı "Səfvətüs-Səfa" əsərində Şeyx Səfi barədə belə bir məlumat təqdim edib: "Bir gün həzrət Şeyx oturur ikən gördi kim, mehrabun divarı yarılub bir kimsə çıxub, həzrət Şeyxə xitab etdi kim, ey türk piri və ol çağ Şeyxə "türk piri" derlərdi..."

Bu günlərdə YouTube platformasında kimsə israrla sübut etməyə çalışırdı ki, Şeyx Səfiəddinin türk olması barədə fikir həmin əsərə sonradan daxil edilib. Qəribədir, kimin nə ehtiyacı vardı ki, Səfiəddin Ərdəbilinin türk olduğunu kiməsə car çəksin? Tutaq ki, deyilənlər həqiqətdir, artırıblar, bunun bizə hansısa ziyanı varmı? Axı o kitabda Səfiəddindən başqa da çoxlu türklər və turanlar var. Tutaq ki, o təzkirədə Muqanlu Pirə Bayatı var. Yaxud belə xəbərlər: "Pirə Turan dedi kim..." və s.. Pirə Turan - övliya Turan mənasındadır.

Mustafa Ekinçi "Ərdəbil Təkkəsinin Quruluşu, Gəlişməsi və Anadoludakı dini və siyasi fəaliyyətləri" əsərində bildirir ki, Teymur 1402-ci ildə Yıldırım Bəyazidlə müharibədən dönərkən Ərdəbilə baş çəkmiş, Şeyx Səfi xanəgahını və Şeyx Səfiəddinin nəvəsi Xoca Əlini ziyarət etmiş, bu görüşdən sonra Ərdəbil və ətrafındakı bütün torpaqların gəlirinin Ərdəbil təkkəsinə verilməsini əmr etmiş, Ankara müharibəsində əsir götürdüyü və əsasən, Təkə və Qaraman boylarından oluşan osmanlıları Xoca Əlinin istəyinə uyğun olaraq azad edib onları Ərdəbil təkkəsinin kəramətinə bağışlamışdı. Brokkelman isə yazır: "Şeyx Heydərin tərəfdarları, içlərindən Teymurun Şeyx Xoca Əliyə bağışladığı Anadolu əsirlərinin nəslindən gələnləri imtiyazlı bir durum əldə etmiş müxtəlif türk qəbilələrinə mənsubdurlar". İlk Səfəvi əsgərlərinin də, ilk qızılbaşların da elə əski osmanlı zümrəsindən olduğunu təkzib etmək sadəcə, mümkün deyil. Deməli, Nihal Atsızın əvvəldə xatırladığım mülahizəsi bilavasitə həqiqətdir: bu, bir iç savaşıydı...

*16-17 avqust 2026*

# Qara fələyin ağ maskası

## Herman Melvillin "Mobi Dik, yaxud Ağ balina" romanı haqqında

əvvəli ötən sayımızda

İzmail nə Allahdan, nə də Allaha qaçır - o, Yunisin Allahla barışandan sonrakı halıdır. Həlim xasiyyətli, aydın fikirli, ağır təmkinli bu gənc, sadəcə, canını sıxan reallıqdan dartınıb qopmağa çalışır. Okean adlı üstünə su sərilmiş əsrarəngiz kainat onu özünə çəkir. O, qurudaykən sanki hələ ana bətnində, həyatın sahilindədir, dəryaya baş vurmaqla həyata doğulmaq, gözlərini dünyaya açmaq istəyir. Gəmi heyətinə yazıldığı vaxt ona verilən sualı da belə cavablayır: "Dünyanı görmək istəyirəm". Ona göylərdən heç bir missiya yüklənməyib, onun missiyası elə bu kitabda baş verənləri insan oğluna danışmaq, batan gəmidən - fələyin emalatxanasında dişləri itilənmiş azman balığın qarnından nə hesaba qurtulduğunu dünyadan qırağa çıxan abid kimi hücrəsindən zikr eləməkdir.

Nantaket limanında İzmaillə Kvikeq üçillik səfərə hazırlaşan "Pekod" adlı balıqçı gəmisinə yazılırlar. Balina ovu üzrə ixtisaslaşmış gəminin adı avropalı gəlmələrin qırıb kökünü kəsdiyi yerli amerikan qəbiləsinin xatirəsinə qoyulub. Bunun özü artıq nəhs əlamətdir. "Pekod" gəmisinin müxtəlif xalqların, irqlərin nümayəndələrindən ibarət beynəlmiləl tərkibli heyəti var. Bunu adətən romanda təsvir olunan dövrün sosial-siyasi gerçəkliyinə, Şimali Amerikada məskunlaşan əhalinin etnik-irqi rəngarəngliyinə bağlayırlar - əlbəttə, belə yozumun yaşamağa tam haqqı var; ancaq biz daha çox o varianta inanırıq ki, o gəmi elə kainat adlı okeanda uzun bir səfərə çıxmış yer adlı planetin, gəminin heyəti də həyatdan şərikli bəslənən ağlıqaralı, sarılı-qırmızılı cəmi bəşəriyyətin rəmzidir.

"Pekod"un kapitanı Axav dəryada hər balığın keçdiyi yola bələd olan usta balina ovçusu, inadından dönməyən qəzəbli, kinli qocadır (yaşı hələ altmışa çatmasa da, dövrünün arşınıyla onu qoca saymalıyıq). Bir ayağını dizdən aşağı balina dişi qoparmış kapitan balina çənəsindən qayırılmış protezlə gəzir. İndi onun ailə ocağının istisinə qızınmaq yerinə belə bir ağır səfərə çıxmağı da qazanc niyyəti güdmür; Axav onu şikəst qoymuş həmin ağ balinanı - dəniz ovçularının Mobi Dik adı verdiyi, canına sancılan nizələrin açdığı yaralardan gövdəsi neçə yerdən çapılmış nəhəng albinoz balığı tapıb ondan qisasını almaq istəyir.

Axavın adı da Bibliyadan - miladdan əvvəl doqquzuncu əsrdə hökm sürmüş İsrail padşahının adından götürülüb. Yəhudilərin müqəddəs kitabı Əhdi-ətiqdə Axav pis əməllər törətdiyinə, yad qadınla evlənib yad bütlərə sitayiş elədiyinə görə Tanrının qəzəbinə gəlmiş padşah kimi xatırlanır. Dövrünün peyğəmbəri İliya (müsəlman versiyasında İlyas) ona qarşı amansız mübarizə aparır, sonda həmin mübarizə bütlərin məğlubiyyəti, yəhudi tanrısının qələbəsiylə başa çatır. Məsələ burasındadır ki, İzmaillə Kvikeq də Nantaket limanında "Pekod" gəmisinin heyətinə yazılmağa hazırlaşanda bir suyumu cır-cındır geymiş dəliyə, bir suyumu dünya malına həqarətlə baxan müqəddəsə bənzər İliya adlı qəribə qoca onların yolunu kəsib dostları bu qanlı sevdadan daşınmağa çağırır. Onun fikrincə, Axav gəmiyə yığdığı adamları öz taleyinə şərik tutmaq istəyir, kindən-nifrətdən ağlını itirmiş kapitanın niyyəti qaranlıqdır, bu səfərin sonu fəlakət görünür. Təbii ki, okeana baş vurmağa böyük həvəslə hazırlaşan gənclər sərsəm peyğəmbərin sözünə məhəl qoymurlar, yeni həyatın ağuşuna sevinclə atılırlar.

***

Gəmi dənizə çıxandan yalnız bir neçə gün sonra kapitan Axav göyərtədə görünür. Onun tutqun, sərt görkəmi, əzabdan qarsılmış üzü İzmaili sarsıdır. Göyərtəyə döşənmiş taxta lövhələrin üstündə xüsusi oyuqlar açılıb ki, gəmi yırğalananda Axav protez ayağını həmin deliklərə yerləşdirib müvazinətini itirməsin. Dor ağacına çıxıb müşahidə aparanlara xüsusi tapşırılıb ki, ağ balina görsələr, dərhal kapitana xəbər versinlər. Axavın üzü gülmür, eyni açılmır, intiqam duyğusu ona rahatlıq vermir.

Günün birində "Pekod"un bütün heyəti kapitanın əmriylə göyərtəyə toplaşır. Axav bir qızıl sikkəni ortasından dor ağacına mıxlayır: kim Mobi Dik adlı ağ balinadan ilk soraq versə, bu qızıl da onundur. O nəhəng çılğın balıq insan oğullarıyla neçə-neçə döyüşdən qalib çıxıb, gövdəsinə sancılmış nizələrlə yenə də okeanın altından vurub üstündən çıxır. Dənizçilər artıq onu yenilməz, batılmaz sayırlar, ovçuların dilində Mobi Dik neçə vaxtdır qorxulu əfsanəyə, balıqçılara qənim kəsilmiş müdhiş yuxuya çevrilib. Ağ balığın qara sulara gömdüyü gəmilərin, insanların sayı bilinmir. Döyüşkən ruhlu Axavı da məhz bu balıq yaralayıb.

Ağ balina şər rəmzi, niqabı yırtılmış təbiətin gerçək üzü, fələyin, ölümün ağ kəfənli elçisidir. Melvill üçün ağ rəng əslə xeyir simvolu deyil, bu haqda kitabda hətta ayrıca bir fəsil var. Ondan ötrü ağ rəng saflığı, təmizliyi yox, kainatın, təbiətin insan əzablarına biganəliyini, kosmosun əbədi soyuqluğunu, varlığın mütləq boşluğunu, dünyanın sərt bozluğunu, həyatın rəngsizliyini, yaşamağın mənasızlığını, ölü canın solğunluğunu ifadə eləyir. Əslində, Mobi Diki şər timsalı saymaq da doğru deyil, çünki təbiətin şüuru yoxdur, o, xeyir-şər nə olduğunu bilmir, xeyiri şərdən, şəri xeyirdən ayırmır, səbəb-nəticə qanunlarının yedəyində atını kainat boyu işıq sürətiylə çapır. Onun şər qanunlarıyla hərəkətə gəldiyini insan oğlu kəşf eləyib.

Kapitan Axav da ağ balinayla savaşını şərlə mübarizətək qələmə verir, bundan ötrü gəmidə xüsusi mərasim də keçirir, magik ovqata bürünmüş dənizçi ritualıyla matrosları öz çılğın mübarizəsinin əsgərlərinə çevirir. Kapitanın baş köməkçisi ağıllı, praqmatik Starbek Axavı inandırmağa çalışır ki, kor instinktlərin təhrikiylə hərəkətə gələn şüursuz bir məxluqa qarşı düşmənçilik aparmaq sağlam düşüncəyə ziddir, dini baxımdam yanaşılsa, hətta küfrdür; Axavın qorunmalı olduğu tək bir düşməni varsa, o da özüdür.

Fəqət Şekspir qəhrəmanları kimi canını yandıran intiqam hissinə mübtəla olmuş kapitan Axava belə sözlər əsər eləməz. O özünü möhkəm inandırıb ki, gözəgörünməz iplərlə hər tərpənişini idarə eləyən Tanrının göstərişini yerinə yetirir, Yaradanın iradəsini həyata keçirir. Beləcə, qəzəbli kapitan özünü zorla zərurət zəncirinin bir halqasına pərçimləyib ağ balinanın timsalında fələyə meydan oxuyur, Tanrı cəngavəri kimi şərə savaş açır. İzmaillə söhbətində Axav deyir ki, bu dünyada təsadüfə yer yoxdur, hər bir məxluq özünün konkret ömür yolu, həyat marşrutuyla doğulur. Onda İzmail kapitandan soruşur: əgər bizi gələcəkdə nə gözlədiyini bəri başdan biliriksə, niyə gələcəyimizi dəyişməyə çalışırıq? Axav anlayır ki, sərsəm, sərsəri İliyanın proqnozu İzmailin də qulağına çatıb, ona görə də qəti şəkildə deyir ki, öz ölümünü özü seçəcək: "Bizim azadlığımız taleyimizdən qaçıb gələcəyimizi öz əlimizlə qurmaq uğrunda apardığımız mübarizədə sınaqdan çıxır".

Göründüyü kimi, Axavın həyata baxışında dərin təzad var: bir yandan o, zərurət zəncirinin halqası, ilahi iradənin icraçısı kimi davranır, o biri yandan determinizm qandalını sındıran azad iradədən, Epikürün təsadüfən silsiləni qırıb qaçan başıpozuq atomundan danışır. Azadlığı taleyə qarşı qoymaqda kapitan haqlıdır, amma onun azadlığının mənəvi bazası yoxdur, onun azad sandığı əməl tam bir determinizm aktı, qisas əməliyyatıdır, təbiətin törətdiyi şərdən törəyən şərdir. Axav daim şər istehsal eləyən azman çarxın qarşısına özünün bir atımlıq nifrəti, bir şillələik hövəti, taytıyan hikkəsiylə çıxır. O, xəyali tanrısının yox, məhz elə fələyin iradəsini icra eləyir, insan azadlığına qənim kəsilmiş taleyin hökmünü yerinə yetirir. Sonda bu hökmün icrası çox böyük ustalıqla həyata keçirilir...

davamı növbəti sayımızda



F.Uğurlu

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






# Uşaqların dünyası...

## Hansı oyuncaqlar faydalıdır?

## Valideynlərin oyuncaq seçimində buraxdığı səhvlər

Oyuncaqlar uşaqlar üçün sadəcə əyləncə vasitəsi deyil, körpənin dünyanı tanımasına, düşünməsinə, hərəkət etməsinə, danışmasına və təsəvvürünü genişləndirməsinə şərait yaradır. Buna görə də valideynlərin oyuncağın rənginə, formasına və uşağın istəyinə baxaraq etdiyi seçim əslində onun inkişafına təsir edən mühüm qərarlardan birinə çevrilir.

Mütəxəssislərin fikrincə, oyuncaq alarkən ən böyük səhvlərdən biri onun nə qədər parlaq, bahalı və texnoloji olmasına həddindən artıq əhəmiyyət verməkdir. Halbuki uşağın inkişafı baxımından ən faydalı oyuncaqların bir çoxu olduqca sadədir.

### “Uşaq oynayır” deyib keçməmək lazımdır

Mövzu barədə fikirlərini “Yeni Azərbaycan”la bölüşən psixoloq Elnur Rüstəmov bildirib ki, xüsusilə uşağın öz fantaziyasına uyğun müxtəlif oyunlar qurmasına imkan verən vasitələr daha faydalıdır: “Məsələn, bir neçə taxta kub uşaq üçün həm ev, həm körpü, həm qala ola bilər. Belə oyun zamanı uşaq hazır ssenarini təkrarlamır, özü düşünür, qərar verir və yeni ideya yaradır.

Kuklalar və oyuncaq heyvanlar da düzgün seçildikdə uşağın emosional inkişafında mühüm rol oynaya bilər. Uşaq kuklasını yedizdirir, yatırdır, ona həkimlik edir, danışır və bəzən öz yaşadığı hadisələri oyun vasitəsilə canlandırır. Bu, uşağın hisslərini ifadə etməsinin təbii yollarından biridir. “Uşaq oynayır” deyib keçməmək lazımdır, bəzən uşağın oyunu onun sözlə deyə bilmədiyi hisslərinin dili olur”.

### Hansı oyuncaqlar daha faydalıdır?

Kublar, pazllar, konstruktorlar, taxta fiqurlar, yaşa uyğun plastilinlər, rəsm üçün vasitələr, kitablar, sadə musiqi alətləri, kuklalar, oyuncaq mətbəx və həkim dəsti kimi yaradıcılığa imkan verən oyuncaqlar uşağın öz dünyasını qurmasına şərait yaradır. Belə oyuncaqlarda hazır ssenari az olduğundan uşaq özü düşünür, seçim edir, qurur, sökür, yenidən yaradır və bununla da həm təxəyyülünü, həm də problemi həll etmək bacarığını inkişaf etdirir.

Xüsusilə müxtəlif formalı və ölçülü konstruksiya detalları uşağın əl-göz koordinasiyasına, diqqətinə və məkan düşüncəsinə müsbət təsir göstərə bilər. Kitablar isə uşağın söz ehtiyatının və dil bacarıqlarının inkişafında mühüm rol oynayır. Yəni yaxşı oyuncaq uşağı saatlarla passiv şəkildə məşğul edən deyil, onu düşünməyə və hərəkət etməyə sövq edən oyuncaqdır.

### Elektron oyuncaqların hamısı zərərlidir?

Psixoloq qeyd edib ki, son illərdə danışan, oxuyan, işıq saçan, mahnı oxuyan və düyməyə basdıqda müxtəlif funksiyaları avtomatik yerinə yetirən oyuncaqlar uşaqlar arasında böyük populyarlıq qazanıb: “Bu cür oyuncaqları tamamilə qadağan etmək düzgün yanaşma deyil, lakin onların uşağın bütün oyun dünyasını əvəz etməsinə imkan vermək də məqsədəuyğun sayılmır.

Çünki oyuncaq hər şeyi uşağın əvəzinə etdikcə uşağın özünün düşünməsi, ssenari qurması və yaradıcı fəaliyyət göstərməsi azalır. Məsələn, özü hərəkət edən avtomobillə oynamaqla uşağın bir neçə taxta kubdan yol, körpü və qaraj düzəldərək avtomobil üçün bütöv bir dünya yaratması eyni inkişaf imkanlarını vermir.

Bu səbəbdən elektron oyuncaqlar əsas oyuncaq deyil, oyun vasitələrindən yalnız biri kimi düşünülməlidir”.

### Hansı oyuncaqlardan uzaq durmaq lazımdır?

E.Rüstəmovun sözlərinə görə, oyuncaq seçərkən ilk növbədə təhlükəsizlik düşünülməlidir: “Yaş həddinə uyğun olmayan, asanlıqla qopan və udula bilən, xırda hissələri olan oyuncaqlar xüsusilə kiçik uşaqlar üçün təhlükə yarada bilər. Kiçik batareyalar, xüsusilə düymə tipli batareyalar və güclü maqnitlər uşaqların əli çatmayan yerdə saxlanmalıdır. Onların udulması ciddi təhlükəli vəziyyətlərə səbəb ola bilər.

Kəskin kənarları, asan sınan hissələri, keyfiyyətsiz materialdan hazırlandığı şübhə doğuran, boya və örtüyünün soyulduğu oyuncaqlara da ehtiyatla yanaşmaq lazımdır. Çox yüksək səslə işləyən oyuncaqlar isə uşağın eşitmə sağlamlığı baxımından yaxşı seçim olmaya bilər.

Valideynlər həmçinin oyuncağın üzərindəki yaş göstəricisinə diqqət etməlidir. “3+”, “6+” kimi işarələr sadəcə istehsalçının tövsiyəsi deyil, müəyyən təhlükəsizlik və inkişaf xüsusiyyətlərini nəzərə alan göstəricidir”.

### “Uşağım bunu istəyir...”

Psixoloqun fikrincə, uşaqlar mağazada gördükləri hər parlaq və məşhur oyuncağı istəyə bilərlər və bu, tamamilə təbiidir: “Lakin valideynin vəzifəsi hər istəyi dərhal yerinə yetirmək yox, həmin oyuncağın uşağa nə verdiyini düşünməkdir.

Bir oyuncaq alınmazdan əvvəl sadə suallar vermək kifayətdir: Bu oyuncaq uşağı düşünməyə vadar edəcəkmi? Uşaq onunla müxtəlif oyunlar qura biləcəkmi? Yaşına uyğundurmu? Təhlükəsizdirmi? Bir neçə gündən sonra maraq doğuracaq, yoxsa sadəcə bir düyməyə basmaqdan ibarət olacaq?

Əgər oyuncaq uşağın iştirakını tələb edirsə, onu yaradıcılığa sövq edirsə və müxtəlif şəkildə istifadə edilə bilirsə, seçim daha uğurlu ola bilər”.

### Ən yaxşı oyuncaq bəzən oyuncaq deyil...

E.Rüstəmov sonda qeyd edib ki, bəzən uşağın inkişafı üçün ən qiymətli “oyuncaq” valideynin onunla keçirdiyi vaxtdır: “Birlikdə kitab oxumaq, kubiklərdən ev tikmək, kuklalarla süjet qurmaq, şəkil çəkmək, tapmaca həll etmək və ya sadəcə uşağın qurduğu oyuna qoşulmaq bahalı elektron cihazdan daha böyük emosional və inkişaf dəyərinə malik ola bilər. Çünki uşaq oyuncaqla təkcə oynamır, onun vasitəsilə dünyanı öyrənir. Valideyn isə bu oyunun içində olduqda uşağın suallarını eşidir, düşüncəsini anlayır və onun inkişafını yaxından izləyir.

Ona görə də oyuncaq seçərkən “ən bahalısı hansıdır?” sualından əvvəl, “uşağıma nə öyrədəcək?” sualını vermək daha doğrudur. Yaxşı oyuncaq uşağın əlində sadəcə bir əşya kimi qalmır, onun təxəyyülündə bütöv bir dünyaya çevrilir”.

*Yeganə BAYRAMOVA*

# Dünyada ilk...




## Süni intellekt beyin şişi əməliyyatında cərrahlara kömək edib

Böyük Britaniyada 48 yaşlı kişi dünyada ilk dəfə əməliyyat zamanı real vaxt rejimində süni intellekt texnologiyasından istifadə edilməklə beyin şişi çıxarılan pasiyent olub.

AZƏRTAC “The Independent”ə istinadla xəbər verir ki, əməliyyat Londonda Milli Nevrologiya və Neyrocərrahiyyə Xəstəxanasında həyata keçirilib. Cərrahlar Ris Hibbertin beynindəki şişi çıxdone çıxararkən mühüm anatomik strukturları rənglərlə fərqləndirərək müəyyən etməyə imkan verən yeni süni intellekt texnologiyasından istifadə ediblər. Bu sistem əməliyyat zamanı həkimlərə beynin olduqca kiçik və həssas strukturlarını daha dəqiq müəyyənləşdirməyə kömək edib.

Xəstəxana bir müddətdir sözügedən texnologiyadan tədqiqat məqsədilə istifadə etsə də, keçirilən əməliyyat onun ilk dəfə canlı pasiyent üzərində tətbiqi olub. Mütəxəssislər yeni texnologiyanın köməyi ilə Hibbertin hipofiz vəzisindəki şişi uğurla çıxarıblar.

Bedfordşirdə yaşayan Hibbert bildirib ki, əməliyyat onun görmə qabiliyyətini qoruyub.

Həkimlərin sözlərinə görə, əməliyyat həyata keçirilməsəydi, şiş Hibbertin görmə qabiliyyətini itirməsinə səbəb ola bilərdi.

Prosedur zamanı süni intellekt əməliyyatdan yayımlanan görüntüləri real vaxt rejimində təhlil edərək, beynin mürəkkəb strukturlarını xüsusi şəkildə işarələyib. Mütəxəssislər bildiriblər ki, beynin bu hissəsində hipofiz vəzi, qan damarları və görməni idarə edən sinirlər bir-birinə olduqca yaxın yerləşir və cəmi bir millimetrlik yanlış hərəkət belə ciddi nəticələrə səbəb ola bilər. Süni intellekt sistemi şiş çıxarılarkən cərrahlara toxunulmamalı olan həssas nahiyələri dəqiq göstərərək, əməliyyatın təhlükəsiz aparılmasına kömək edib.



## Azərbaycanın 7 stolüstü tennisçisi “Kiçik Avropa çempionatı”nda iştirak edəcək

Azərbaycanın 13 yaşadək stolüstü tennisçilərdən ibarət komandası Fransada keçiriləcək “Euro Mini Champs” turnirində iştirak edəcək.

Stolüstü Tennis Federasiyasından AZƏRTAC-a bildirilib ki, avqustun 28-31-də Şiltinheym şəhərində təşkil olunacaq yarışda ölkəmizi Əliəkbər Mirzəliyev, Cəfər Almədədli, Camal Kərim, Mehin Mirzəbalayeva, Yasəmən Həbibova, Gülnur Kərimli və Səidə Qulizadə təmsil edəcəklər.



İdmançılar məşqçilər Elnur Hidayətzadə və Ramil Cəfərovun rəhbərliyi altında mübarizə aparacaqlar.

Qeyd edək ki, sayca 20-ci dəfə keçiriləcək “Euro Mini Champs” turniri “Kiçik Avropa çempionatı” kimi tanınır. Azərbaycanlı stolüstü tennisçi Onur Quluzadə 2024-cü ildə yarışın bürünc medalını qazanıb.

## “Böyük Dəbilqə”: Azərbaycan cüdo millisi Lozannada 14 idmançı ilə təmsil olunacaq

Beynəlxalq Cüdo Federasiyasının təqviminə əsasən avqustun 28-30-da İsveçrənin Lozanna şəhərində cüdo üzrə “Böyük Dəbilqə” turniri keçiriləcək.

Azərbaycan Cüdo Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, “Los-Anceles-2028” Yay Olimpiya Oyunlarına lisenziya xalları verən yarışda ölkəmiz 9 çəki dərəcəsində 14 idmançı ilə təmsil olunacaq. Komandanın heyətində 10 kişi və 4 qadın cüdoçu yer alıb.

Üç gün davam edəcək turnirdə 78 ölkədən 518 cüdoçu (309 kişi, 209 qadın) tatamiyə çıxacaq.




Qadınlar arasında 52 kiloqram çəki dərəcəsində Gültac Məmmədəliyeva və Leyla Əliyeva, 70 kiloqramda Südabə Ağayeva, +78 kiloqramda isə Madina Kaisinova mübarizə aparacaqlar.

Kişilər arasında 60 kiloqram çəki dərəcəsində Əhməd Yusifov, 66 kiloqramda Turan Bayramov və Ruslan Paşayev, 73 kiloqramda Kamran Süleymanov və Rəşid Məmmədəliyev, 81 kiloqramda Ömər Rəcəbli və Vüsal Qələndərzadə, 90 kiloqramda Vüqar Talıbov, +100 kiloqramda isə Kənan Nəsibov və Uşanqi Kokauri tatamiyə çıxacaqlar.

Dünya Cüdo Turuna daxil olan yarışda Azərbaycan Cüdo Federasiyasının Hakimlər Komitəsinin üzvü, A kateqoriyalı beynəlxalq hakim Nazim Umbayev də ədalət təmsilçiləri arasında yer alacaq.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4498**
**Sifariş: 1098**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova